№ 255 ISSN 1027-3875 15 oktyabr 2008

KHAZAR VIEW

XƏZƏR XƏBƏR



ELMİ-KÜTLƏVİ, BƏDİİ-PUBLİSİSTİK TOPLU

www.khazar.org

ELMİ-KÜTLƏVİ,
BƏDİİ-PUBLİSİSTİK
TOPLU

1995-ci ilin
yanvarından ayda 2 dəfə çıxır

Təsisçi:
XƏZƏR UNİVERSİTƏSİ

Baş redaktor:
Hamlet İSAXANLI

Baş redaktor müavini:
Əlirza BALAYEV

Redaksiya heyəti:
Camal MUSTAFAYEV
Tofiq ABASQULIYEV
Nurəddin RZAYEV
Cəmil HƏSƏNLİ
Bəhlul ABDULLA
Nizami CƏFƏROV
Əfqan ABDULLAYEV
İsmət ƏHMƏDOV

Rəssam:
Rafiq ƏBDÜLRƏHİMOV

Kompüter tərtibatçısı:
Əminə M.Rzaqızı
Fotomüxbir:
Xeyrulla HACƏLİYEV

Ünvanımız:
Bakı, Məhsəti küçəsi 11,
("Neftçilər" metrosunun yanı)
Faks: 498-93-79
Telefon: 421-79-16
421-10-93

Şəhadətnamə: 255
İndeks: 67178
Sifariş: 190
Tiraj: 3000

Müəlliflərlə
redaksiyanın mövqeyi
üst-üstə düşməyə bilər
Əlyazmalar geri qaytarılmır
Xəzər Universitəsi
mətbəəsində çap edilmişdir

SCIENTIFIC-POPULAR
LITERARY-PUBLICISTIC
COLLECTION

It has been publishing twice
a month since January, 1995

Founder:
KHAZAR UNIVERSITY

Editor-in-chief:
Hamlet ISAXANLI

Associate editor:
Alirza BALAYEV

Editorial member:
Jamal MUSTAFAYEV
Tofiq ABASQULIYEV
Nurəddin RZAYEV
Jamil HASANLI
Bahlul ABDULLA
Nizami JAFAROV
Afgan ABDULLAYEV
İsmat AHMADOV

Design by:
Rafig ABDULRAHIMOV

Computer graphics:
Amina M. Rzaqizi
Photoreporter:
Kheyrulla HACALIYEV

Address:
11 Mahsati str., Baku,
(near the "Neftchilar" metro)
Fax: 498-93-79
Phone: 421-79-16
421-10-93

Certificate: 255
Index: 67178
Order: 190
Copies: 3000

The opinions of authors
and editors
could be independent
Manuscripts are not returned
Published by
Khazar University Press

OXUYUN

Bu nömrədə



Hamlet İsaxanlı: "Yaradıcı insan nə evinin uca olmasını arzulayır, nə də adının..." 12



Camal Mustafayev
SÖZÜ FİKİR YAŞADIR 15



ELNUR NƏSIROV
Rusiya: *arzular və imkanlar ölkəsi* 22



Vasif SADIQLI
Dilim-dilim ol, dilim! 33



Hafiz Hacxalıl
RUH OTAĞI 31



Нилуфер
СТИХИ ИЗ РОМАНА «ТАКЕШ» 20


USAQ DÜNYASI



36

Ədalət VƏLİYEV
XX ƏSRİN SONUNDA MİLLİ ÖZÜNÜDƏRK PROSESİ VƏ «AZƏRBAYCAN CƏMİYYƏTİNDƏ TEATRIN YERİ» PROBLEMİNİN AKTUALLAŞMASI 26

XƏZƏR UNİVERSİTƏSİNDƏ



Oktyabrın 5-də Xəzər Universitəsinin "Dünya" konsert salonunda həm bakalavr, həm də magistr proqramları üzrə 25-ci məzunluq mərasimi keçirildi. Mərasim həmişə olduğu kimi, sözləri Hamlet İsaxanlının, musiqisi Vasif Adıgözəlov və Ramiz Mustafayevin olduğu "Xəzər Universitəsinin himni" ilə açıldı.

Aparıcılar – Humanitar və sosial elmlər fakültəsinin II kurs tələbələri Elnarə Əliyeva, Orxan Abdullayev və Tibb fakültəsinin tələbəsi Svopnil Borade məzunları və tədbirə toplaşanları salamladıqdan sonra elan etdilər ki, bu buraxılışda Xəzər Universitəsini 131 nəfər, o cümlədən 99 bakalavr, 32 magistr bitirərək məzun olur. Bu münasibətlə məzunları təbrik edən aparıcılar Xəzər Universitəsinin bir ali təhsil və elm ocağı kimi üstünlüklərindən söhbət açdılar, məzunlarından yalnız bəzilərinin ad və soyadlarını göstərməklə həm ölkədə, həm də xaricdə ən nüfuzlu təşkilatlarda – AR Prezidentinin İcra Aparatı, AR Milli Məclisi, AR Konstitusiya Məhkəməsi, AR Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya, Vergilər, Nəqliyyat, Ədliyyə, Milli Təhlükəsizlik, Təhsil, İqtisadi İnkişaf nazirlikləri, Milli Bank və Ağır Cinayətlərə dair Hərbi Məhkəmədə, BP şirkəti və AR-nin ABŞ və Kanadadakı səfirliklərində çalışdıqlarını iftixarla bildirdilər və şair Şahin Fazilin "Xəzər"ə həsr etdiyi şerindən bir parçanı ifa etdilər:

Bir elm evinin gör nə gözəl əyyamı gəldi,
Susmuşdu könül, təbi coşub, ilhamı gəldi,
Olsun gözün aydın ki, "Xəzər" bayramı gəldi,
Hamlet İsaxanlı elə ki, bir "Xəzər" açdı,
Tək qalmadı, ölkəmdə Xəzərlər qoşalaşdı!

Az vaxtda bu məbəd elə məşhur ola bildi,
Bir təntənə, bir dəbdəbə, bir şur ola bildi,
Gözlərdə, könüllərdə əsl nur ola bildi,
Hamlet İsaxanlı elə ki, bir "Xəzər" açdı,
Tək qalmadı, ölkəmdə Xəzərlər qoşalaşdı!

Sonra aparıcılar Xəzər Universitəsinin qurucusu və rektoru, professor **Hamlet İsaxanlını** səhnəyə dəvət etdilər. O, məzunlara müraciətlə dedi:

– Əziz məzunlar! Sizi ürəkdən təbrik edirəm və inanın ki, hər dəfə mən də sizin qədər həyəcanlanıram, çünki sizinlə biz eyni işi görürük, eyni hissləri yaşayırıq. Siz ali məktəbi qurtarmağa çalışırsınız,



NÖVBƏTİ MƏZUNLUQ MƏRASİMİ



biz çalışırıq ki, siz ali məktəbi qurtarasınız. Siz çalışırsınız ki, yaxşı qurtarasınız, yaxşı bitirəsiniz, biz də çalışırıq ki, yaxşı qurtarıb, yaxşı mütəxəssis olasınız.

Bu gün bizim 25-ci məzunluq mərasimimizdir. "Xəzər"in yaşı 25-dən azdır, amma məlum səbəblərə görə ildə iki dəfə məzunlar təntənəsi olur, ildə iki dəfə həyata vəsiqə veririk sizə. Onu da deyim ki, 25-ci buraxılış indiyədək məzunlarımızın sayca ən çox olduğu buraxılışdır.

Hamıdan yaxşı siz bilirsiniz ki, "Xəzər"də oxumaq xeyli çətindir, ən azı başqa ali məktəblərlə müqayisədə oxumaq çox çətindir. Ona görə buranı qurtarmaq şərəfli bir işdir. Və mən bilirəm, bu gün siz rahat nəfəs alırsınız ki, şükür buranı bitirirsiniz. Amma həyatın gözəlliyi məhz çətinlikləri, maneələri, sədləri aşmaqdan ibarətdir. Yalnız onda siz gözəl mütəxəssis ola bilərsiniz. Elə "Xəzər"i yaradanların, "Xəzər"də çalışanların da qarşılarına qoyduğu məqsəd o idi ki, biz burada tələbələri elə oxudub yaxşı mütəxəssis kimi yetişdirək ki, onlar dünyanın hər yerində işləyə bilsinlər. Dünyanın hər yerinə getmək üçün məzunlarımız dilləri yaxşı bilməlidirlər, dünyagörüşləri geniş olmalıdır. Bunların hamısını sizə öyrətməyə çalışmışıq. Və biz sizi dünya vətəndaşı eləməkdən əlavə çalışmışıq ki, həm də yaxşı Azərbaycan vətəndaşı olasınız. Çünki kökü olmayan heç nə yaşaya bilməz. Hətta quşlar da göydə daim uça bilmirlər, yerə enib torpaqdan güc alırlar. Və siz də əgər burada doğulubsunuzsa, Azərbaycan torpağı sizin köküzdürsə, ondan qüvvət almalısınız. Biz çalışdıq ki, mədəniyyətimizi, incəsənətimizi, ədəbiyyatımızı öyrənəsiniz, çünki bunlarsız heç kəs ölkəsinin layiqli vətəndaşı, nümayəndəsi ola bilməz. Bəs biz qarşımıza qoyduğumuz məqsədə necə nail olmuşuq? Bunu qiymətləndirmək bizim işimiz deyil. Bunu ictimaiyyət, işə götürənlər qiymətləndirir; əgər siz yaxşı təşkilatlarda, yaxşı şirkətlərdə işə daxil ola bilirsinizsə, orda irəli gedə bilirsinizsə, bu o deməkdir ki, biz bu dediklərimizi edə bilmişik, hər halda, etməyə çalışmışıq.

Mən sizə, məzunlara təşəkkür edirəm ki, bu işi bizimlə bərabər gördünüz, valideynlərinizə də təşəkkür edirəm, bilirəm





ki, valideynlərin seçimi böyük rol oynayır, sizinlə bərabər qərar qəbul ediblər. Arzu edirəm ki, siz rahat iş həyatı, ailə həyatı qurub, dünyanı yaxşı dərk eləyib çalışasınız, böyük insanlar olasınız. Eyni zamanda arzu edirəm ki, böyüdükcə "Xəzər"ə daha da bağlı olasınız, bura sizin doğma ocağınızdır. Adamın ata-anası olur, onları biz seçmirik, onları bizə Allah verir, doğulduğumuz yer olur, biz onu da seçmirik, ancaq "Xəzər"i siz seçib bura gəlmisiniz. Siz "Xəzər"in məzunusunuz, bundan sonra başqa yerdə təhsil alsanız da, məzun kimi siz məhz Xəzərin məzunusunuz. Və mən istərdim ki, siz ömür bo-



yu universitənizlə fəxr edəsiniz, deyəsiniz ki, bu bizim universitədir, "Xəzər"lə maraqlanasınız, onun inkişafını izləyəsiniz. Və eynilə biz sizi izləyək, görək ki, bizim məzun çox böyük alim oldu, çox böyük siyasətçi oldu, çox böyük milyarder-biznesmen oldu, çox məşhur həkim oldu və ilaxır.

Mən sizi bir daha təbrik edirəm, sizə xoşbəxtlik, cansağlığı arzulayıram! Sizin valideynlərinizi təbrik edirəm, onlara "sağ olun" deyirəm, müəllimlərinizi təbrik edirəm, onlara "sağ olun" deyirəm. Hamınıza uğurlar arzulayıram.



Sonra məzunlara diplomların təqdim olunması mərasimi başlandı. Məzunlar səhnəyə dəvət olunaraq, Məzun və Hippokrat andlarını söyləyərək and içdilər:

"Xəzər universitəsində əldə etdiyim bilik və bacarığı tətbiq edərək ailəm, xalqım və vətənim üçün faydalı olacağıma and içirəm! Xəzər universitəsinin şərəfini qoruyacağıma and içirəm!

"Dilindən, dinindən, millətindən və irqindən, maddi vəziyyətindən asılı olmayaraq bütün xəstələrimə öz doğmalarım qədər yaxın olacağıma və onların sağalması üçün əlimdən gələni edəcəyimə and içirəm!

Diplomları universitənin prorektoru, Memarlıq, mühəndislik və tətbiqi elmlər fakültəsinin dekanı, dosent **Rafiq Əhmədov**, universitənin prorektoru, İqtisadiyyat və menecment fakültəsinin dekanı, professor **Məhəmməd Nuriyev**, Humanitar və sosial elmlər, Hüquq fakültələrinin dekanı, dosent **Cabir xəlilov**, Tarix departamentinin müdiri, elmlər namizədi **Roza Arazova**, Tibb, stomatologiya və ictimai səhiyyə fakültəsinin dekanı, dosent **Nigar Bağırova**, Siyasi elm və beynəlxalq münasibətlər departamentinin müdiri **Baba Bayramlı**, İngilis dili departamentinin baş müəllimi **Firəngiz Nəsirova**,



Təhsil fakültəsinin dekan əvəzi **Elza Seyidova** təqdim etdilər.

Sonda aparıcılar yenə məzunlara müraciət etdilər:

– Siz artıq bu gün tələbəliyin ən son pilləsini tərk edərək, "Xəzər"ə əlvida deyirsiniz. Universitəmizin məzunları kimi həyatın müxtəlif sahələrində əmək fəaliyyətinə başlayacaqsınız. Həyat yollarında sizə büdrəmədən, Xəzər Universitəsinin adına layiq irəliləməyi, gənc ömrünüzün hər günündən səmərəli istifadə etməyi arzulayırıq!

Gənclik gurultulu axan dağ çayı,
Axır ömrümüzdən yaman gizlicə.
Fəqət eşidilmir hayı, harayı,
Bilmirik ömürdən ötübdür necə.



Qocaldır gəncləri ötüşən illər,
Aylar ömrümüzdən sovuşub gedər.
Gənciyi şərbəttək içsək biz əgər,
Ömrün hər çağına şirinlik düşər.

Xəzər Universitəsinin daha bir məzunluq təntənəsi beləcə başa çatdı. Məzunlar "əlvida" deyərək, həyat yollarında yeni nailiyyətlər əldə etmək üçün doğma universitədən ayrıldılar.

Mərasim Xəzər Universitəsi mahnı və rəqs ansamblının konsert proqramı ilə müşayiət olundu.

"Xəzər Xəbər"

Fotolar Humanitar və sosial elmlər fakültəsinin tələbələri Kamilla Nərimanova, Olqa Ələsgərova, Anar Rüstəmov və Könül Əliyevanındır.



YENİ ZİRVƏLƏR SORAĞINDA...

Xəzər Universitəsinin 25-ci məzunlarına təbrik məktubları

Daha bir məzunluq təntənəsi... Həyatın daha bir sevinc dolu, kövrək pilləsi arxada qaldı... Əslində isə həyatın yeni bir səhifəsi açıldı, daha böyük işlər üçün "məzun" adını daşıyanların çiyninə yeni bir vəzifə də əlavə olundu. Bu həyat məktəbinə artıq yeni zirvədən baxmaq üçün imkan yarandı. Amma hələ öndə daha uca zirvələr, daha keşməkeşli yollar var. Bu günün məzunlarının bəzilərini dünyanın müxtəlif ali təhsil ocaqları, bəzilərini adlı-sanlı şirkətlər, biznes sahələri... gözləyir.

Əziz məzunlarımız!

Hörmətli Hamlet müəllim! Müəllimlər və məzunların valideynləri!

Bugünkü bayram - Xəzər Universitəsinin 25-ci məzunluq bayramı münasibətilə hər birinizi səmimi-qəlbdən təbrik edir, hər birinizə bu şərəfli yolda öz öhdənizə düşən işi layiqincə yerinə yetirdiyiniz üçün təşəkkürlərimi bildirirəm!

Bu, bir məzunluq mərasimi olsa da, məncə, yalnız dünənə qədər tələbə adını daşıyanların deyil, həm də müəllimlərin və valideynlərin də bayramıdır. Çünki onlar da çəkdikləri əziyyətin bəhrəsini görürlər.

Əziz məzunlar!

Xəzər Universitəsinin məzunu olmaq hər tələbəyə qismət olmur! Bu, o deməkdir ki, siz artıq seçilmişlərdənsiniz! Təbii ki, seçilmiş olmaq çox fərəhləndirici olmaqla yanaşı, bu adı daşıyanın üzərinə bir məsuliyyət hissi də qoyur! Bu mənada, siz bu gündən həm də "Xəzər" adını daim ucaltmaq, onun şərəfini qorumaq, onun könüllü əsgəri olmaq vəzifəsini də öz üzərinizə götürürsünüz (bəzilərniz (magistrlər, doktorlar) artıq bu missiyanın daşıyıcılarısınız!). İnanıram ki, siz Xəzər Universitəsinin məzunu kimi dünyanın harasında olsanız, bu vəzifəni də daim şərəflə daşıyacaqsınız!

İllər keçdikcə "Xəzər" sizin üçün daha da doğmalaşacaq, geridə qalan tələbəlik illərinin acılı-şirinli günlərini həsrətlə yad edəcəksiniz! Bir sözlə, "Xəzər Universitəsinin məzunu olmuşam," - ifadəsindən təhsilinizi təsdiq edən bir sənəd kimi istifadə edəcək, ömür boyu "Xəzər"lə yaşayacaq, bu adı qəlbinizdə daşıyacaqsınız! Gələcəkdə çoxlu səhnələrə çıxacaq, çoxlu diplomlar, mükafatlar alacaqsınız. Amma heç biri "Xəzər"in səhnəsində aldığınız bu "həyat vəsiqəsi"ni əvəz etməyəcək!..

"Xəzər"in bir çox məzunluq təntənəsində iştirak etmişəm! Çox istərdim ki, bu məzunluq bayramında sizin yanınızda olum! Təəssüflər olsun ki, bu sevincli gününüzdə sizinlə bərabər olmaq imkanından məhrumam! Çünki insanların, xüsusilə müstəqil həyata atılan insanların sevincini paylaşmaq dünyanın ən gözəl duyğularındandır. Amma orada olmamağımın bir səbəbi də "Xəzər" olduğunu düşündüyümdən, özümə təskinlik tapıram! İnanıram ki, siz də ən yaxın zamanda bu duyğuları yaşayacaq, səsiniz-sorağınız dünyanın müxtəlif yerlərindən gələcək – bu həm də Xəzər Universitəsinin səsi-sorağı olacaq!

Əziz məzunlar! Bir daha sizi bugünkü gün münasibətilə təbrik edir, sizə yeni-yeni zirvələri fəth etməyi, dövlətimizin, millətimizin adını ucaltmağı arzu edirəm! Bugünkü dünyada isə bu yalnız təhsillə mümkündür!

Sizə bu çətin yolda lazımi köməyi göstərdikləri üçün başda Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı olmaqla, müəllimlərinizə və valideynlərinizə səmimi təşəkkürlərimi çatdırıram!

Bayramınız mübarək!

Hörmət və ehtiramla,
Cabir Məmmədli,
Xəzər Universitəsinin məzunu.
Yunanıstan/Saloniki ş.
24.09.2008

* * *

"That's really great honor for me that the University where I got my BA and MBA degrees is now expecting to have 25th Graduation.

I would like to take an opportunity to express my sincere wishes and congratulations to graduate students.


It's not a compliment but the true that the students who graduate from Khazar University have big opportunities in career and professional life in the future. To graduate Khazar is having a chance to open all the doors to a professional career".

Aynura Musayeva
Alumni of Khazar University
Greece/Thessaloniki
25.09.2008

25 MƏZUNLUQ TƏNTƏNƏSİ: FƏRƏHLİ NƏTİCƏLƏR

«Xəzər Universitəsində əldə etdiyim bilik və bacarığı tətbiq edərək ailəm, xalqım və vətənim üçün faydalı olacağıma and içirəm! Xəzər Universitəsinin şərəfini qoruyacağıma and içirəm!»

Düz 12 il əvvəl – 1996-cı il sentyabrın 14-də Azərbaycanın ilk özəl ali məktəbi olan Xəzər Universitəsinin 31 məzunu bu andı içərək, Universitənin ilk məzunları kimi tarixə düşdülər. 2008-ci il oktyabrın 5-də isə Universitəmizdə 25-ci məzunluq təntənəsi keçirildi və 131 tələbə məzun oldu. Bu gün ümumilikdə 1342 (1029-bakalavr, 307 magistr, 6 doktor) məzun



arzuladıqları ixtisaslara yiyələnərək, ölkəmizdə və ölkəmizin hüdudlarından çox-çox uzaqlarda müxtəlif sahələrdə çalışır və ya təhsillərini davam etdirirlər. Artıq cəsarətlə deyə bilərik ki, Xəzər Universitəsinin məzunu olmaq nə qədər çətindirsə, bir o qədər də şərəfli və məsuliyyətlidir. Elə buna görə də, əksər tələbələr Xəzər Universitəsinin diplomunun hörmət və nüfuzunu bilərək, hətta təhsil müddətlərinin ciddi surətdə uzanmasına məhəl qoymadan məhz bu Universitənin məzunu olmağa üstünlük verirlər. Bununla bağlıdır ki, son illər başqa ali məktəblərə yüksək ballarla daxil olan, sonradan «Xəzər»ə köçürülən tələbələrin də sayı artmaqdadır.

Bu yaxınlarda başqa bir ali məktəbdən (etika xətrinə ali məktəbin adını çəkmirik) Xəzər Universitəsinə köçürülmək istəyən bir tələbə, «niyə məhz «Xəzər»də təhsil almaq isətyirsən« sualına gülümsəyərək, çox inamla və lakonik cavab verdi: «İstəyirəm ki, iş axtarmaq üçün bir yerə müraciət edəndə bükülə-bükülə yox, «sportsmen» kimi (*biliyimə güvənərək vüqarla* – **İ.İsaxanlı**) gedim». Bütün bunlar «Xəzər»in diplomuna və bu diploma sahib olan məzunlarımıza böyük hörmət və inamın bariz göstəriciləridir.

Əziz məzunlar! İnanırıq ki, Xəzər Universitəsində əldə etdiyiniz bilik və bacarığınız sayəsində ailəniz, xalqımız və vətənimiz üçün faydalı olacaq, Xəzər Universitəsinin şərəfini həmişə qoruyacaqsınız.

İndi isə Qəbul və Tələbə Şöbəsinin, ilk dəfə olaraq, Universitəmizin məzunları haqqında hazırladığı statistik məlumatlar cədvəlini oxucularımıza təqdim edirik (səh.10) və bundan sonra çalışacağıq ki, tələbələrimiz və məzunlarımızla bağlı müxtəlif maraqlı məqamları özündə əks etdirən statistik məlumatların dərc edilməsi ənənəvi xarakter alsın.

İsaxan İSAXANLI ,
Qəbul və tələbə şöbəsinin müdiri
Lamiyə NAMAZOVA,
Qəbul və tələbə şöbəsinin laborantı

XƏZƏR UNİVERSİTƏSİ

Məzunlar haqqında statistik məlumatlar

Fakültələr üzrə

Fakültələr	Bakalavr						Magistr						Doktor Ph.D		Birlikdə					
	cəmi		fəxri		adi		cəmi		fəxri		adi				cəmi		fəxri		adi	
MMT	100	75	26	17	74	58	74	61	8	5	66	56	3	1	177	137	34	22	143	115
		25		9		16		13		3		10		2		40		12		28
		11		2		9		10		3		7		2		23		5		18
İM	191	118	78	45	113	73	106	52	11	6	95	46	-	-	297	170	89	51	208	119
		73		33		40		54		5		49		-		127		38		89
				-				2		-		2		-		2		-		2
HRS	294	47	116	11	178	36	49	18	15	5	34	13	3	1	346	66	131	16	215	50
		247		105		142		31		10		21		2		280		115		165
		1		-		1		3		1		2		1		5		1		4
H	315	202	97	55	218	147	66	35	15	4	51	31	-	-	381	237	112	59	269	178
		113		42		71		31		11		20		-		144		53		91
		-		-		-		-		-		-		-		-		-		-
TB	123	31	51	6	72	25	12	5	6	1	6	4	-	-	135	36	57	7	78	29
		92		45		47		7		5		2		-		99		50		49
		22		4		18		-		-		-		-		22		4		18
T	6	6	2	2	4	4	0		0		0				6	6	2	2	4	4
Cəmi	1029	473	370	134	659	339	307	171	55	21	252	150	6	2	1342	646	425	155	917	491
		556		236		320		136		34		102		4		696		270		426
		34		6		28		15		4		11		3		52		10		42

Qeyd 1: *MMT – Memarlıq, mühəndislik və tətbiqi elmlər; İM – İqtisadiyyat və menecment; HRS – Humanitar və sosial elmlər; H – Hüquq; TB – Tibb, stomatologiya və səhiyyə; T – təhsil.*

Qeyd 2: *Hər bir bölmədə məzunların ümumi sayını göstərən rəqəmin qarşısındakı 3 mərtəbəli rəqəmlər, uyğun olaraq, oğlanlar, qızlar və o cümlədən əcnəbilərin sayını göstərir. (Əcnəbi tələbələrin sayında oğlanlar və qızlar ayrı - ayrılıqda göstərilməmişdir).*

Qeyd 3: *1342 məzuna 1371 diplom verilmişdir. Belə ki, 9 nəfər (8 nəfər – hüquq, 1 nəfər– Memarlıq, mühəndislik və tətbiqi elmlər fakültəsi) 2-ci ixtisas almış, 20 nəfərə (tibb, stomatologiya və səhiyyə fakültəsinin məzunları) isə 5 illik ali təhsil diplomundan əvvəl bakalavr diplomu da verilmişdir.*

Qeyd 4: *Universiteti fəxri diplomla bitirmiş 370 bakalavr məzundan 73-ü yüksək fəxri, 7-si ən yüksək fəxri diploma layiq görülmüşdür. Magistratura səviyyəsində yüksək fəxri və ən yüksək fəxri diplom verilmir.*

Yüksək fəxri və ən yüksək fəxri diplom almış məzunların arasında əcnəbi tələbə yoxdur.

Yüksək fəxri və ən yüksək fəxri diplomlar fakültələr üzrə belə bölünmüşdür:

MMT – yüksək fəxri diplom – 6 (4 oğlan, 2 qız);

İM – yüksək fəxri diplom – 14 (6 oğlan, 8 qız); ən yüksək fəxri diplom – 5 (hamısı oğlan);

HRS – yüksək fəxri diplom – 23 (hamısı qız);

H – yüksək fəxri diplom – 23 (9 oğlan, 14 qız); ən yüksək fəxri diplom – 2 (1 oğlan; 1 qız). Maraqlıdır ki, bu fakültənin hüquq-şünaslıq ixtisası üzrə ən yüksək fəxri diplom almış məzunu – Mehdili Elnarə Azad qızı beynəlxalq hüquq üzrə 2-ci ixtisası da ən yüksək fəxri diplomla bitirmişdir.

TB – yüksək fəxri diplom – 7 (2 oğlan, 5 qız).

AZƏRBAYCAN GƏNCLƏRİNİN V FORUMU

Oktyabrın 3-də Heydər Əliyev adına İdman-Konsert Kompleksində Azərbaycan gənclərinin V forumu keçirilmişdir. Gənclər və idman naziri Azad Rəhimov ötən forumdan indiyədək görülən işlər barədə məruzəsində qeyd etdi ki, IV forumdan ötən dövr Azərbaycanda əsaslı iqtisadi inkişaf və siyasi yüksəliş mərhələsi olmuş və qürurla demək olar ki, Azərbaycan gəncliyi də üzərinə götürdüyü vəzifələrin öhdəsindən layiqincə gəlmişdir. Gənc nəslin Vətənə məhəbbət, Azərbaycan xalqının tarixinə, dilinə, mədəniyyətinə, dövlət rəmzlərinə və adət-ənənələrinə hörmət ruhunda tərbiyə edilməsi gənclər siyasətinin ən mühüm istiqamətlərindən biridir. 2006-2007-ci illər ərzində respublikanın əksər şəhər və rayonlarını əhatə edən "Gənclərin vətənpərvərlik tərbiyəsi klubları"nın şəbəkəsi yaradılmış, ənənəvi olaraq keçirilən hərbi-idman oyunlarında kütləviliyə nail olunmuşdur. 6500 nəfərdən çox fəal gəncin iştirak etdiyi "Mən Azərbaycan vətəndaşıyam" adlı təşviqat kampaniyası respublikanın 43 şəhər və rayonunu əhatə etmişdir.

Gənclər siyasətinin prioritet istiqamətlərindən biri gənclərin keyfiyyətli təhsillə təmin olunması istiqamətində görülən işlərdir. "Qara qızılı insan kapitalına çevirmək" devizi altında dövlət qayğısı gənc nəsildə təhsilə, elmə marağın yaranmasına səbəb olmuşdur.

"2007–2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi gəncliyə göstərilən diqqətin parlaq təzahürüdür. Ali, orta ixtisas, peşə məktəblərinin və peşə liseylərinin tələbələrinə və şagirdlərinə verilən təqaüdlərin artırılması gənclər tərəfindən yüksək qarşılanmışdır.

Dövlət gənclər siyasətinin əsas istiqamətlərindən biri olan yaradıcı və istedadlı gənclərə dövlət qayğısının artırılması istqamətində də işlər davam etdirilmişdir. Bu, son illər qəbul edilmiş dövlət proqramlarında daha qabarıq şəkildə özünü göstərmişdir. Gənc istedadlar üçün xüsusi təqaüdlər təsis olunmuşdur. Gənclərin məşğulluğunun təmin edilməsi, işsizliyin azaldılması, peşəyönümlü işin təşkili, bazar iqtisadiyyatı tələblərinə uyğun yeni ixtisaslara yiyələnmək, sahibkarlıq fəaliyyətinin stimullaşdırılması istiqamətində də əlavə tədbirlər həyata keçirilmişdir.

2005-ci ildən 2008-ci ilin oktyabrınadək gənclər təşkilatlarının 110 layihəsi dövlət büdcəsi hesabına maliyyələşdirilmiş, 300-dən çox gəncin beynəlxalq tədbirlərdə iştirakına şərait yaradılmışdır.

Nazir gənc sahibkarlara yaradılan şəraiti də xüsusi vurğulayaraq dedi ki, 2006-cı ildən etibarən əmək bazarında gənclərin rəqabətliliyini artırmaq, karyeranın planlaşdırılması və qurulması prinsiplərini gənclərə öyrətmək məqsədi ilə "Milli karyera günləri" adlı layihə həyata keçirilmiş, gənclərin sahibkarlığın əsaslarına yiyələnmələri üçün regionlarda davamlı olaraq təlimlər təşkil edilmişdir. Ənənəvi olaraq hər il keçirilən gənc sahibkarların respublika sərgilərində iştirak edən gənc sahibkarların sayı ildən-ilə artır. Bu sərgilər vasitəsilə kənd təsərrüfatı, informasiya texnologiyaları, xalq tətbiqi sənəti, turizm və digər xidmət sahələrində fəaliyyət göstərən gənc sahibkarların məhsulları və xidmətləri nümayiş etdirilir.

Gənclər arasında sağlam həyat tərzinin təbliğ olunması, xüsusilə də cinayətkarlığın, QİÇS-in, narkomanlığın və digər zərərli vərdişlərin profilaktikası, respublikanın ictimai-siyasi həyatında və beynəlxalq əlaqələrin qurulmasında gənclərin iştirakına şərait yaradılması, gənclərin qeyri-hökumət təşkilatlarının dövlət gənclər siyasətinin həyata keçirilməsinə yaxından cəlb edilməsi də nazirliyin fəaliyyətinin əsas istiqamətlərindən biri olmuşdur.

Forumun sonunda 1533 nümayəndənin adından Azərbaycan gənclərinə müraciət, habelə forumun qətnaməsi qəbul olundu.

Hamlet İsaxanlı: "Yaradıcı insan nə evinin uca olmasını arzulayır, nə də adının..."

Azərbaycan Dövlət radiosu "Sözdən Səsə" verilişinin növbəti qonağı Xəzər Universitetinin rektoru, tanınmış alim və şair Hamlet İsaxanlı idi. Veriliş dinləyicilərdən gələn suallara cavab üzərində quruldu.



- "Salam, Hamlet müəllim, insanda dəyər verdiyiniz ən yüksək keyfiyyət və xoşunuz gəlməyən ən mənfi cəhət nədir? İmza: Susanna".

- Ən yüksək keyfiyyət kimi ədalət hissini qiymətləndirirəm, ədalətli insanın həyata, ümumiyyətlə hər şeyə münasibəti dürüst olur və o, qarşısına çıxan məsələləri düzgün həll eləyir. Dünyanın düzgün inkişafı da elə bununla bağlıdır. Xoşuma gəlməyən cəhət isə yaltaqlıq və ikiüzlülükdür. İnsanda bunlar varsa, o, ədalətdən çox uzaq olur və bu hərəkətlər vəziyyətdən haqsız bəhrələnmək, sui-istifadə xarakteri daşıyır. Bu isə gözəl insana yaraşmayan bir sifətdir.

- "Öz istedadı ilə zirvələri fəth edən Hamlet müəllimlə şəxsən mən fəxr edirəm və soruşmaq istərdim ki, arzulara nail olmaq üçün yalnız istedad və çalışqanlıq yetərlidirmi? Yoxsa dəstək də lazımdır? İmza: Emil".

- Əlbəttə, hər bir sahədə iş görmək üçün insanın istedadı, qabiliyyəti və çalışqanlığı çox mühümdür, çünki istedadlı olan adam həm də tənbəl ola bilər və bu halda yaxşı heç nə alınmaz. Yaxud, çox çalışqan ola bilərsən, amma istedadın yoxdursa, yenə də böyük bir şeyə nail ola bilməyəcəksən. Misal üçün, əgər mənim rəssamlıq qabiliyyətim yoxdursa, nə qədər çalışsam da, gözəl rəsmlər çəkən fırça ustası olmayacağam. O ki qaldı dəstək məsələsinə, baxır dəstək nəyə deyirsən. Əgər dəstək yaxşı müəllimə deyilirsə, yaxşı valideynə, yaxşı məktəbə deyilirsə, bu çox yaxşı cəhətdir. Amma "dəstək" sözü "dayı" sözü ilə bağlıdırsa, bu, həyatda ləyaqətli yer tutmaq üçün qəti surətdə önəmli deyil. "Dayı" vasitəsilə əldə olunanlar süni və müvəqqətidir. Ona görə də, dost dəstəyi, valideyn, müəllim dəstəyi daha üstündür, çünki onlar yol göstərib məsləhətlər verirlər.

- "Salam Əli, rektorumuz olan Hamlet müəllimi də salamlayıram və Azərbaycan radiosuna təşəkkür edirəm ki, ona suallar vermək üçün bizə imkan yaradıb. Sualım belədir: riyaziyyat çox dəqiq bir elmdir, poeziya isə hisslərin ifadəsidir. Onların hər ikisinə özünüzdə necə yer ayıra bilmisiniz?"

- Bəli, riyaziyyat çox dəqiq bir elmdir, amma riyaziyyatın özü hiss, həyəcan və fantaziya üzərində qurulur. Orada sonsuz imkanlar və sonsuz yollar var. O yollardan birini seçməkdə intuisiya, fantaziya çox böyük rol oynayır. Bu cəhətdən riyaziyyat poeziya və musiqiyə yaxınlaşır. Poeziya isə həqiqətən də hiss və həyəcan üzərində qurulub, amma onun özünün də müəyyən bir ahəngi, hesabı var.

- "Deyirlər ki, riyaziyyat Allaha çox yaxın olan bir elmdir. Siz riyaziyyatla məşğul olanda özünüzü daha çox Allaha yaxın hesab eləyirsiniz, yoxsa şeir yazanda? İmza: tələbəniz".

- Mən deyim ki, hansı elmin, hansı fəaliyyət növünün Allaha daha yaxın olması barədə mən qəti şəkildə fikir yürüdə bilmərəm. Şairlər deyir ki, biz Allaha daha yaxınıq, rəssamlar deyir ki, yox, Allaha biz yaxınıq və beləliklə, bütün peşə sahibləri özlərini Allaha daha yaxın hesab eləyirlər. Amma görünür ki, Allaha ən yaxın Allahın elçiləri olan peyğəmbərlər olub. Başqaları isə yalnız Allaha yaxın olmaq istəyir. Misal üçün, Şərqdə böyük sufi ədəbiyyatı var, onun əsas ideyası ondan ibarətdir ki, insan Allaha qovuşmalıdır. İnsanın eşqə, həqiqətə, ədalətə qovuşmasını Allaha qovuşmaq kimi qəbul eləyirlər. Bu barədə o dərəcədə söhbətlər olub ki, hətta özünü Allaha bərabər hesab eləyənlər (Mənsur Həllac, Nəsimi) çıxıblar. Onlar deyirdilər ki, mən Allahın özüyəm və buna görə sonradan əziyyətlər çəkdilər. Hesab eləyirəm ki, insan qəti surətdə Allahlıq iddiasında olmamalıdır. Bu bəzən insanlıqdan çıxmaq deməkdir. Allah mücərrəd və qeyri-adi gücü olan bir anlayışdır. Biz onun dəqiq nə olduğunu bilmirik, ona inanırıq və ya inanmırıq.

- Gürcüstandan Coşğun Cəfər imzalı dinləyicimiz yazır: "Salam Əli, qonağınızı salamlayıram. Ona sualım belədir: Sizin evinizin uca olmasını istəyərdiniz, yoxsa adınızın?"

- Mənə elə gəlir ki, yaradıcı insanlar nə evinin uca olmasını arzulayır, nə də adının. Onlar istəyirlər ki, yaradıcı fəaliyyətdə xoşbəxt olsunlar, çünki insan həyatının mənası xoşbəxtlikdir, İnsan xoşbəxt olmaq istəyir. Sadəcə olaraq, hərə xoşbəxtliyi bir cür görür. Yaradıcı insan isə yaradıcılıqla məşğul olmaq və birinci növbədə özünü qane eləyən bir nəticə əldə eləmək istəyir. Sonradan isə öz oxucularının, tamaşaçılarının, yaxud dinləyicilərinin onu qəbul etməsini arzulayır. Vacib olanı budur. Filosoflar demişkən, yaradıcı insan özü bir qurbandır. O, özünü öz yaradıcılığına qurban verir və özünü onda görür. Bu baxımdan evin və ya adın ucalığı o qədər də mühüm deyil.

- "Əksər şairlər şeirlərini dərddən, ağrıdan yazdıqlarını deyirlər. Bəs siz niyə yazırsınız?"

- Qismən o fikirlə razıyam, çünki şeir və ya digər bədii əsərlər insanın içindəki hisslərin və gördüyü haqsızlığa, ədalətsizliyə qarşı ağrıların əlamətidir. Lakin tək bunlar deyil. İnsan həm də təbiətdə olan gözəlliyi, sevgini tərənnüm eləyir. Deməli, şeir həm ağrıları, həm də sevgini ifadə eləmək üçündür. Çünki bu hissləri dəqiq elmlərlə - fizika, kimya, riyaziyyat, biologiya ilə ifadə eləmək mümkün deyil.

- Coşğun Cəfərin, deyəsən, ürəyi dolu imiş, onun üçüncü sualı belədir: "Siz universitetdə rektorsunuz, tələbələrinizə cəmiyyətin xilaskarı olmaq üçün hansı tövsiyələri verirsiniz? Ümumiyyətlə, tələbələrinizdən elələri varmı ki, siz onları mənəvi övladınız hesab edəsiniz? Şair və yazıçı tələbələriniz varmı? Sağ olun. Hörmətlə, Gürcüstandan Coşğun Cəfər".

- Biz ilk öncə tələbəni yaxşı mütəxəssis kimi yetişdirməyə çalışırıq, çünki o öz peşəsini yaxşı bilərsə, ölkəsinə, vətəninə, ailəsinə faydalı bir insan olar. Faydalı olarsa, cəmiyyəti irəli apara bilər. Digər tərəfdən, tələbəni yalnız mütəxəssis kimi deyil, onu bir vətəndaş kimi, insan kimi yetişdirmək istəyirik ki, geniş dünyagörüşü olsun. İnsanda ləyaqət hissi çox üstündür. Əgər tələbə dərsə qorxa-qorxa gedirsə, imtahan üçün başqa yollara əl atırsa, gələcəkdə də çalışacaq ki, məsələləri belə yollarla həll eləsin və həmin insan güclü ola bilməyəcək. Biz çalışırıq ki, bu hallar olmasın. O ki qaldı tələbələr içərisində şair ruhluların olmasına, onlar var, amma çox deyil. Mən vaxtımın azlığına görə onlarla çox məşğul ola bilmirəm. O

cümlədən də, İrandan gələn tələbələrim var ki, çox istedadlıdırlar. Onlarla münasibətim dostcasınadır. Ola bilər ki, onlardan bir azca təcrübəliyəm, bəzən bir az onlardan çox bilirəm və onlara məsləhətlər verirəm.

- Bizə gələn bir SMS-i oxumaq istəyirəm: "Salam, Əli! Hər ikinizi xoş gördük. Hamlet müəllimə belə bir sualım var: Markes deyir ki, ədəbiyyatla qorxaq olduğuma görə məşğul oldum. Bəs siz nəyə görə ədəbiyyatla məşğul olursunuz? İmza: Əsəd Nəsirli".

- Markes çox böyük yazıçıdır, lakin onun paradoksal fikirlərini birbaşa, kontekstdən ayrı qəbul eləmək lazım deyil. O, qorxaq olsaydı, əsərlərində o dərəcədə qeyri-adi ciddi problemlər qaldırmazdı və səmimi olmazdı, ədalətsizliyə qarşı etirazını bildirməzdi. Təbiətən qəti surətdə qorxaq deyiləm və ədəbiyyata öz sözümü demək üçün gəlmişəm, qorxaqlıqdan deyil. Sovet dövründə ədəbiyyata qazanc məqsədilə gələnlər var idi. Siyasi şeirlər yazıb, partiyanı tərənnüm eləyib gözəl yaşayırdılar. Bu dövrdə isə belə üsul yetərli deyil, əgər sənin içində bir hiss varsa və onu ifadə edirsənsə və onu da oxucular qəbul eləyirsə, deməli, müəyyən dərəcədə yaza bilirsən.

- "Hamlet müəllim, Xəzər Universitetində gürcü şairlərlə görüş zamanı tələbələrdən biri durub sizin şeirinizi dedi. Çox xoşuma gəldi. "Səni sevdim çox sadəcə" adlı şeir idi... Sizcə, sevgi doğrudan da bu qədər sadə və səmimi olmalıdır? Bir də, çox xahiş edirəm ki, bir şeir deyəsiniz. İmza: Leyla".

- Səmimiyyətsiz sevgi olmaz ki... Əgər siyasətlə məşğul olsan, səmimi olmaya bilərsən, hətta patriotik şeirlərin bir hissəsi səmimi olmaya bilər. Sevgi şairlərin gücünü ölçmək üçün ən gözəl vasitələrdən biridir. Sevgiyə görə sənə nə mükafat verən var, nə də səni tərifləyən. Qınayanlar isə tapılır. O ki qaldı şeirə, mən "Lalə" adlı bir şeir oxumaq istəyirəm.

Lalə

(Professor Camal Mustafayevlə Bakıdan Borçalıya gedərkən yol boyu həsrət və heyranlıqla lalələri seyr edirdik)

İncə alov tək dikəldi,
Parladı yandı lalə.
Gözümüzə işıq gəldi,
Könül cumdu xəyalə.

Yanağı al-qırmızıdı,
Göydə yazılmış yazıdı,
Allahın doğma qızıdı,
Əhsən o mahcəmalə.

Dağlı, çöllü, meşəlidi,
Sərxoş, ürkək, ya dəlidi,
Hər halda çox nəşəlidi,
Gəlməyəydi zavalə...

Onu işvəkar sanmayın,
Ona dəyib toxunmayın,
Amandır, vüsal ummayın,
Lalə dözməz vüsalə...

(Red.: *Əslində, radioda "Səni sevdim çox sadəcə" şeirini səsləndirmişdi.*)

- "Salam, Hamlet müəllim! Tələbəniz olan və hazırda yanınızda oturmuş Əlinin bir sözü var, həmişə deyir ki, tələbə ac və tənbəl olur. Siz onunla razısınızmı? Bir də, kiminsə kəsirlərimizə görə bizə nə vaxtsa rəhmi gələcəkmi? İmza: tənbəl tələbə".

- Tələbə çox vaxt ac olur, bununla tamamilə razıyam. Tələbə yalnız oxumaqla məşğul olur, işləmir. Ailəsi də ona çox pul vermir ki, sənin işin oxumaqdır, çox pulu hara xərcləyəcəksən?! Və tələbə bir çox arzularını həyata keçirə bilmir. Misal üçün, sevdiyi qıza böyük hədiyyə ala bilmir, uzağı bir gül alır. Ona görə də, onu ac hesab eləmək olar. Tənbəl məsələsi isə belədir: tənbəl tələbələr olur, bir də çalışqan tələbələr var. Çalışqanlar çalışqandır, tənbəllər tənbəldir. Bu dəqiqdir (gülür).

- Söhbətimizin sonudur, ən çox xoşunuza gələn bir sualı seçin ki, biz həmin sualın müəllifini Akademiya Kitab Mərkəzinin hədiyyəsilə mükafatlandıraq.

- Suallardan birində ədəbiyyatla riyaziyyat müqayisə olunurdu, istərdim ki, həmin müəllif qalib seçilsin.

"525-ci qəzet",
11 oktyabr 2008-ci il

SÖZÜ FİKİR YAŞADIR


Həyatın zahiri gedişatından batininə dərinləşmək-düşünən idraka xasdır. Nəzəri idrakın bu təbiəti, insanın həyatda yeri haqqında həqiqəti dərk etməyə yönəldir. Zamanın ziddiyyətli axarında insan ömrünün mənası üzərində düşündürür. Belə fəlsəfi ruhlu düşüncələr nəinki filosofları dərindən maraqlandırır. Eyni zamanda fəal təfəkkürlü sənət adamlarını məşğul edir.

Gözəl şair Xanəli Kərimlinin yaradıcılığında bu cəhətdən diqqəti çəkən örnəklər az deyil. Həmin örnəklər xüsusən son dövrdə nəsrlə yazdığı kəlamlar silsiləsində öz təcəssümünü tapıb. Şairin kəlamlarını "Möhtəşəm Azərbaycan" qəzeti öz səhifələrində yayıb (№ 14-15; 16-17, 2008). Bu silsilədə əsasən insan xarakteri, şair-sənətkar qayəsi mövzularına böyük üstünlük verilib. Burada deyilən fikirlər, müəllifin mənəvi təcrübəsi əsasında formalaşıb. Onun özünəməxsus inamını ümumiləşmiş şəkildə əks edən düşüncələrdir. Onlardan seçib, bu yazıda izah etmək qərarına gəldik.

Əvvəlcə şairin ümumiyyətlə poetik uğurları, şəxsiyyəti haqqında zəruri məlumatları oxucuya qısaca xatırladaq.

Xanəli Kərimli "Anamdan məktub", "Bu da bir nağıldı..." kitabları ilə diqqəti özünə çəkdi. Onun poeziyasının sağlam vətəndaşlıq ruhu oxucunun rəğbətini qazandı. Şeirində yeni poetik fikir demək əzmi diqqətdən yayınmadı. Adları keçən kitablar haqqında bu sətirlərin müəllifi mətbuatda müsbət rəylə çıxış etdi. Rəylər "Şair şeirindən tanınar", "Şairə məktub" başlıqları ilə "Xəzər Xəbər" jurnalında yayıldı.

Şair Xanəli Kərimlinin gözəl poeziyası ilə şəxsiyyəti tə-



biətən bir-birini şərtləndirir, tamamlayır. Onun nəcib milli ziyalılığı hər yerdə nəzərə çarpır. Mənəvi bütövlüyü, halallığı, təmiz adı – zəhmətlə istedadın vəhdətindən doğan keyfiyyətləri yüksək dəyərləndirilir.

Yeri gəlmişkən, Xanəli Kərimli haqqında sevindirici, qürur doğuran xəbəri oxucunun diqqətinə yetirək. Türkiyədə çıxan "Hüryurt" qəzeti yaxınlarda baş məqalələrinin birini bu başlıqla təqdim edib: "Haneli Kerimli Türkiye Edebiyatçılar ve Kültür Adamları Ansiklopedisi`nde". Bu xoş xəbər həcmcə qısa, ancaq ibrətamiz məna daşıyan mətndə ifadə edilib. Məlumat müasir dövrdə Azərbaycanla Türkiyə arasında mədəni əlaqələrin öyrənilməsi cəhətdən əhəmiyyətə malikdir. Getdikcə aktuallaşan bu sahədə Xanəli Kərimlinin poeziyasının rolu haqqında yaxşı təsəvvür oyadır. Bunu nəzərə alaraq, anılan mətni tam surətdə burada əks etdirmək lazım gəlir. *"Farklı türlerde yirmiyi aşkın kitabıyla tanıdığımız şair ve araşdırmacı-yazar İhsan İşık, 26 yıl süren en önemli çalışmasını tamamlayarak, son yüz yılın en kapsamlı bioqrafi ansiklopedisi olan 10 ciltlik "Resimli ve Metin Örnekli Türkiye Edebiyatçılar ve Kültür Adamları Ansiklopedisi"ni yayımladı.*

İhsan İşık`ın çıkardığı 10 ciltlik yeni ansiklopedisinde 10.400 yazar tanıtılırken, yazarların resimlerine, şiir, öykü, makale gibi çeşitli türlerde metin örneklerine genişçe yer veriliyor.

Kardeş ülke Azərbaycan`ın sevilen ve sayılan şair, yazar ve edebiyyatçılarından

Haneli Kerimli de Türkiye Edebiyatçılar ve Kültür Adamları Ansiklopedisi'nde yerini aldı.

Karslıların da yakından tanıdığı ve çok sevdigi, Azerbaycan kültürünü Kars'ta yeşerten, şiir ve yazıları ile Karslılara gönül kapısını açan, bilge insan Haneli Kerimli, Türkiyeyi ve Karsı çok sevdigini bilirterek bütün Kars halkına selam gönderdi.

Karslı vatandaşlar ise, Türk Edebiyatında geniş yankı uyandıran ve son derece önemli olan Türkiye Edebiyatçılar ve Kültür Adamları Ansiklopedisi'nde yazılarını ve şiirlerini severek okuduğumuz, böyük akademisyen şair ve yazar dost insan Haneli Kerimlinin yer alması bizleri ziyadesiyle mutlu etmiştir, Kars elinden bizler de Haneli Kerimliye selam ve sayqılarımızı gönderiyor, başarılar diliyoruz, dediler" (Hüryurt, 4 temmuz 2008).

"Hüryurt"un səmimiyyətlə yazdığı məlumat üçün dərin təşəkkür edirik. Xatırlanan əzəmətli Ensiklopediyanı illər boyu hazırlayan türk araşdırıcısı hörmətli İhsan İşıka ürəkdən minnətdarlıq bildiririk. Xanəli Kərimlini təbrik edir, ona yeni uğurlar diləyirik.

Ön söz yerinə yazılan bu məlumatlardan sonra, başlanğıcda dediyimiz mövzuya başlamaq olar. Xanəli Kərimlinin xatırlanan "Möhtəşəm Azərbaycan" qəzetində yayılan kəlamlarından seçib, diqqətlə izah etməliyik. Bu növ seçimdə adətən araşdırıcının təfəkkürünə yaxın olana daha çox diqqət edilir. Belə üsul, fikirləri həqiqi mənalandırmaq baxımından daha səmərəlidir. Şairin fikirlərindən örnəkləri burada mövzuya görə ayırmaq, sistemli tərzdə incələmək məqsədə müvafiqdir.

İnsanın təzadlı təbiətinə aid düşüncələri ön planda araşdırmalıyıq. Özünüdərketmə ehtiyacına, ruhu başlanğıcı canlandırmağa maraq oyatdığı üçün. Bu mənada çox ibrətli bir kəlamın təhlilindən başlayaq.

"Allah gözə görünmədiyi kimi şeytan da gözə görünmür. Lakin hər birimizin qəlbində həm Allah, həm də şeytan yaşayır. Kamilliyə gedən yol da bu ikilik arasındakı mübarizədən başlanır".

Bu müddəada vurğulanan insan varlığının ikili təbiəti, düşüncəni hər dövrdə məşğul edib. Ruhla bədənin təzadlı nisbəti – ikiliyi doğuran ilk səbəbdir. Ruh – fəal yaradıcı başlanğıcdır; bəşər həyatını mənalandıran yüksək dəyərlər ondan nəşət edib. Onun bu ideal fəaliyyəti insanlığı özünüdərketməyə, kamilliləşməyə yönəldib. Müxtəlif təlimlərdə yaradıcı ruh ilahiləşdirilir; Allah kimi düşünülür. Bu cəhətdən bariz nümunələrdən olan təlim təsəvvüf – sufilikdir. Batini sezgi ilə Allahı dərk etmək sufiliyin mahiyyətidir. Sufi bu mərifətə nəfslə ciddi mübarizə sayəsində yetişir. Ancaq nəfsi (şeytanı) yenmək üçün məhrumiyyətlər sınağından keçir. İnsanı dünya malına qul edən instinktlərdən, bayağı istəklərdən qurtarır – "qəlb aynası təmizlənir". Beləcə, kamil insanın mənəvi heykəlini öz qəlbində ucaldır.

Xanəli Kərimlinin gətirilən kəlamının sufiliyə yaxınlığını şərtləndirən nədir? İman, vicdan təmizliyi, mənfəətpərəstlik ehtirasına qarşı barışmazlıq ruhu. Bunu isə diqtə edən əslində onun sufi həyat tərzinə yaxın üsulda yaşamasıdır.

Bu qəbildən olan başqa bir kəlamın mahiyyətini açaq.

"İnsanın bioloji varlıq kimi doğulması elə bir möcüzə deyil. Ən böyük möcüzə insanın insanlığını dərk edərək öz içindən doğulmasıdır".

Şübhəsiz, insan özünün mənəvi oyanışında öz daxilindən yetişir. Ruhu həyatının səviyyəsinə uyğun olaraq özünüdərketmə təcrübəsini artırır. Bu özünüdərketmədə insaniyyətliyin mahiyyəini düşünən "Mən"ində ehtiva edir. Onun batini yetkinliyi zəngin təbiətində, xeyirxah əməllərində canlanır. İnsanın "öz içindən doğulması" bu mənada araşdırıla bilər.

İndi şairin xarakter haqqında kəlamlarından bəziləri üzərində dayanaq.

"Hamımız zaman və şərait adlı bir qazanda qaynayırıq, lakin xarakterimizdən asılı olaraq hərəmiz bir cürə "bişirik".

Xarakter – iradə müstəqilliyi əsasında gerçəkləşən fərdi xüsusiyyətlərin cəmidir. Həmin xüsusiyyətlərin mənbəyi hərənin öz cövhərindən, irsiyyətindən başlanır. Xarakterlərdə bənzərsiz müxtəliflik bu batini səbəblə izah edilir. Əslində məkan, zamanın insanlara təsiri bu müxtəliflik zəminində fərqli formalarda təzahür edir. Əlbəttə, xarakterlər ünsiyyətdə, fəaliyyət sahəsində, həyat tərzində bilinir. Fərdilik öz niyyətini, iradəsini burda gerçəkləşdirir – təsdiq edir. Bununla bağlı Hegeldən bir iqtibas etmək yerinə düşər: "Əsl xarakterə malik olan insan öz qarşısına mühüm məzmunlu məqsədlər qoyur və bu məqsədlərə mətinliklə riayət edir, belə ki, o, onlardan imtina etməyə məcbur olsaydı, onun fərdiliyi mövcud olmazdı".

Aydınlaşdırılan mövzuya aid daha bir fikri şərh edək.

"Hər kəsin taleyi xarakterini, xarakteri də taleyini müəyyənləşdirir".

Fəlsəfə tale anlamını fərdin mənəvi müstəqilliyi zəminində araşdırır. Onun hərəkətlərinin öz batinindən idarə edildiyi fikrinə əsaslanır. Zahiri gerçəkliklə təmaslarda batini tənzimləyici qüvvə – vicdan duyğusudur. Vicdan əslində özünüdərketmə vəzifəsini daşıyır; əxlaqi şüurun dayaq nöqtəsi, əsas məhvəri sayılır. Xeyiri gerçəkləşdirmək niyyətinə iradəni istiqamətləndirən fəal başlanğıc vicdandır. Fərdiliyin səmimi xarakteri, mənəvi bütövlüyü bu başlanğıcdan qaynaqlanır. Eyni zamanda fərdilik, xarakterinin zəruri şərtləndirdiyi taleyi yaşayır.

Eyni mövzunun davamı olaraq, digər bir müddəanı incələyək.

"İnsanda yaşamaq üçün mübarizə aparmaq gücü tükənəndə özünü talenin ixtiyarına verir".

Burda tale anlamı qədər – qismət kimi ifadə edilib. Qədərə boyun əymək – insanların müqəddəratının əvvəldən təyin edildiyini düşünən inancdan irəli gəlir. Belə fatalist (qədərdən qaçılmazlıq mənasında) ovqat hərəkətsizliyə gətirir. Müəllif isə taleni fərdiliyin fəallığı ilə vəhdətdə düşünür. İnsan yaradıcı qüvvələrini fəal gerçəkləşdirməyə həmişə ehtiyac duyur. Bu fikirlə əlaqəli olaraq, yenə Hegelə müraciət edək: "... "Mən" canlı, fəal fərddir və onun həyatı öz fərdiliyini həm özü üçün, həm də başqaları üçün yaratmaqdır, özünü ifadə etmək və təzahür etdirməkdir. Çünki hər bir insan nə qədər sağdır, özünü gerçəkləşdirməyə çalışır və həqiqətən gerçəkləşdirir".

Yuxarıda Xanəli Kərimlinin etik-psixoloji mahiyyətli kəlamlarından seçilən bəzi nümunələri izah etdik. Doğrudur, bu ruhda nümunələrin sayını xeyli artırmaq olardı. Yəqin şairin gələcək araşdırıcıları bu mövzunu geniş incələyəcəklər.

Şair eyni zamanda poeziya haqqında fikirlərini oxucularla bölüşür. Xüsusən şairliyin qayəsinə münasibətini qısa mühakimələrində əks etdirib. Əsas niyyəti sənətdə milli xüsusiyyətləri qoruyub saxlamağa yönəltməkdir. "O sənətkar xoşbəxtdir ki, öz xalqının ruhuna çevrilir" kəlamı çox ibrətamiz səslənir. Xalqın mənəviyyatına, taleyinə bağlılıq, sevincini, kədərini yaşamaq əsl milli ruhlu sənətkarlara xasdır. Yaradıcılığında xalq başlanğıcını yaşatmaq xalq yaddaşına qovuşmaq deməkdir.

Bu mənada Xanəli Kərimlinin bir fikri diqqəti çəkir: "Əgər yazdıqlarımdan bir misra doğulub boya-başa çatdığım o dağlara gedib çatarsa, demək mən ilkimə qovuşmuşam, demək mən yaşayacağam".

Şair Xanəli Kərimli yaşamağa, yaşatmağa qadir olan sənətkardır.

Camal MUSTAFAYEV

ELMİ-İNZİBATİ ŞURANIN İCLASI

Oktyabrın 3-də Xəzər Universitəsi Elmi-İnzibati Şurasının növbəti iclası olmuşdur. İclasa universitənin rektoru professor **Hamlet İsaxanlı** sədrlik etmişdir. İclasda:

Vəzifələrə təyin olunma;

Məzunlar;

Boloniya prosesi ilə bağlı sənədlər;

Eelmi işçi və müəllimlərin dəyərləndirilməsi;

Xarici işgüzar səfər haqqında məsələlər müzakirə olunmuş və müvafiq qərarlar qəbul edilmişdir.

Vəzifələrə təyin olunma məsələsi üzrə ilk söz universitənin prorektoru **Məhəmməd Nuriyevə** verildi. O, məlumat verdi ki, universitədə rektorluq səviyyəsində yerinə yetirilən işlərin həcmi artdığına görə, **rektorluq tədris işləri üzrə yeni prorektor vəzifəsinin təsis olunması haqqında qərar qəbul edib və bu vəzifəyə Memarlıq, mühəndislik və tətbiqi elmlər fakültəsinin dekanı Rafiq Əhmədovun namizədliyi irəli sürülür.** Xəzər Universitəsində müəllim kimi fəaliyyətə başlayan Rafiq Əhmədovun həm idarəetmə, həm də təhsil sahəsində böyük və zəngin iş təcrübəsi var. Universitəmizdən əvvəl başqa ali məktəblərdə çalışıb, xaricdə işləyib, böyük bir tədris ocağının rəhbəri olub. Bütün bunlar nəzərə alınaraq, bu vəzifəyə Rafiq Əhmədovun namizədliyi Elmi-İnzibati Şuranın müzakirəsinə verilir.

Qısa müzakirədən sonra **Rafiq Əhmədov** prorektor vəzifəsinə təsdiq olundu.

Sonra vəzifəyə təyin olunma məsələsinin müzakirəsi universitənin prorektoru Rafiq Əhmədovun çıxışı ilə davam etdirildi. O, **Təhsil fakültəsinin koordinatoru, eyni zamanda dekan əvəzi vəzifəsinə Elza Səmədovanın namizədliyinin irəli sürüldüyünü bildirdi.** Məlumat verdi ki, Elza Səmədovanın fəaliyyətinin böyük bir hissəsi Türkiyədə keçmişdir. Orta məktəbi bitirdikdən sonra 12 il ərzində Türkiyədə olmuş, Ərciyəs Universitetində bakalavr və magistr təhsili almış, Səlcuq Universitetində doktorluq dissertasiyası müdafiə edərək, Ph.D. elmi dərəcəsini almışdır. Türk dili və ədəbiyyatı, türk mədəniyyəti və pedagogika üzrə mütəxəssisdir. Təhsilini başa vurandan sonra Bakıya qayıdaraq, 2004 - 2008-ci illərdə Azərbaycan Dövlət İqtisad Universiteti Türk Dünyası İşlətmə Fakültəsində müəllim, tədris və tələbə şöbəsinin müdiri işləmiş, 2005-2006-cı illərdə eyni zamanda Qafqaz Universitetində çalışmışdır. Hazırda Xəzər Universitəsində işləyir.

Rafiq Əhmədov daha sonra məlumat verdi ki, **universitədə kompüter şəbəkəsinin genişlənməsi ilə əlaqədar şəbəkə administratoru vəzifəsində daimi çalışan işçiyə ehtiyac vardır və bu vəzifəyə** Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat fakültəsini bitirmiş, avtomatik idarəetmə sistemləri üzrə namizədlik dissertasiyası müdafiə etmiş, **hazırda Xəzər Universitəsinin müəllimi olan Səxavət Talıbovun namizədliyi irəli sürülür.**

Qısa müzakirələrdən sonra Şuranın qərarı ilə **Elza Səmədova** Təhsi fakültəsinin koordinatoru və dekan əvəzi, **Səxavət Talıbov** şəbəkə administratoru vəzifələrinə təsdiq olundular.

Sonra Şura **məzunlar haqqında məsələnin** müzakirəsinə keçərək, Humanitar və sosial elmlər fakültəsinin dekanı **Rafiq Əhmədov,** İqtisadiyyat və menecment fakültəsinin dekanı **Məhəmməd Nuriyev,** Hüquq fakültəsinin dekanı **Cabir Xəlilov,** Tibb, stomatologiya, ictimai səhiyyə fakültəsinin dekanı **Nigar Bağırova,** Təhsil fakültəsinin dekan əvəzi **Elza Səmədova-**

nın məlumatlarını dinlədi. Sədrlik edən Hamlet İsaxanlı məlumatları ümumiləşdirərək söylədi ki, bu buraxılışda universiteni 131 məzun bitirir və indiyədək məzunlarımızın sayca ən çox olduğu buraxılışdır. Məzunlardan 99-u bakalavr, 32-si magistrdir. Onlardan 1 nəfər yüksək fəxri, 29 nəfər fəxri diplom alacaqdır.

Şura məzunların təqdim olunmuş siyahısını təsdiq etdi.

Boloniya prosesi ilə bağlı sənədlər haqqında məsələyə keçməzdən əvvəl sədrlik edən **Hamlet İsaxanlı** məlumat verərək bildirdi ki, on il əvvəl İtaliyanın Boloniya şəhərində əsası qoyulmuş bu prosesdən məqsəd Avropada vahid təhsil məkanının yaradılmasıdır. Yəni tələbələr üçün elə əlverişli şərait yaratmaqdır ki, onlar Avropa miqyasında bir ölkədən digərinə keçəndə çətinliklərlə qarşılaşmasınlar. Bunun üçün vahid sənədlər sisteminin yaradəlması və tətbiqi də zəruridir. Və qeyd etdi ki, Amerika təhsil modelinə əsaslanan bu sistem Xəzər Universitəsində Boloniya prosesi başlanmazdan xeyli əvvəl tətbiq edilmişdir. Xəzər Universitəsində vahid sənəd formalarının tətbiqinə də iki il əvvəl başlanılmış və bu iş davam etdiriləcəkdir. Yeni sənədlər haqqında məlumatı dinləməyimiz də bununla əlaqədardır.

Tələbə qeydiyyat və məlumat şöbəsinin müdiri **Nağı Bayramlı** yeni Boloniya sənədləri haqqında məlumat verdi və onların tətbiqi haqqında qərar qəbul edildi.

Elmi işçi və müəllimlərin dəyərləndirilməsi haqqında prorektor **Məhəmməd Nuriyev** məruzə etdi. Bildirdi ki, dünyanın bütün aparıcı universitetlərində, bir qayda olaraq, ildə bir dəfə professor-müəllim heyətinin dəyərləndirilməsi keçirilir. Bununla əlaqədar olaraq, rektorun göstərişi ilə biz də bu ilin yazında bu sistemi tətbiq etmək üçün hazırlıq işinə başladıq. Xəzər Universitəsinin xüsusiyyətləri nəzərə alınaraq, müvafiq sənədlər hazırlanmış və təşkilati iş aparılmışdır. Dəyərləndirmə üçün üç istiqamət müəyyən olunub və ümumi maksimum qiymət – 1000 bal onların arasında aşağıdakı şəkildə bölünür: a) Tədris fəaliyyəti – 550; b) Elmi və yaradıcı iş – 350; c) İctimai və təşkilati işlər – 100. Tədris fəaliyyəti 16, elmi və yaradıcı iş 9, ictimai və təşkilati işlər isə 8 göstərici üzrə dəyərləndiriləcəkdir.

Şura elmi işçilərin və müəllimlərin dəyərləndirilməsi sisteminin Xəzər Universitəsində tətbiqi haqqında qərar qəbul etdi.

İşgüzar xarici səfər haqqında da prorektor **Məhəmməd Nuriyev** məlumat verdi. Dedi ki, **universitənin İqtisadiyyat və menecment fakültəsi iki ilə yaxındır Osloda yerləşən Norveç Menecment İnstitutu ilə iki istiqamətdə əməkdaşlıq edir:** bakalavr məzunların Horveçdə magistr pilləsində təhsil alması; "Energy menegment" sahəsində müəyyən birgə işlərin görülməsi. 5 nəfər artıq həmin institutda təhsilni bitirib, magistr dərəcəsi almışdır. Keçən il "Energy menegment" sahəsində birgə seminar keçirdik, sonra iki nəfər müəllimi ixtisasını artırmaq üçün iki həftə həmin instituta göndərdik. Proqram davam eləyir; bu proqram çərçivəsində sentyabrın 13-dən 29-dək Leyla xanım Muradxanlı ilə mən orada olduq və onların dörd moduldan ibarət "Energy menegment" proqramının bir modulu ilə yaxından tanış olduq. Bu proqram çərçivəsində qalan üç modulun da öyrənilməsində iştirak edəcəyik. Eyni zamanda, birgə tədqiqat layihələri də həyata keçirməyi nəzərdə tutmuşuq.

Şura məlumatın nəzərə alınması haqqında qərar qəbul etdi. Cari məsələlərin müzakirəsindən sonra sədrlik edən **Hamlet İsaxanlı** iclasa yekun vurdu.

ПОЭЗИЯ

НИЛУФЕР



Автобиография: родилась в 1991 году в столице Азербайджана Баку. В 15 лет стала студенткой двух ВУЗов Москвы: Московского Городского Педагогического университета и Московского Государственного Лингвистического университета им. Мориса Тореза.

Место жительства: РФ, г. Москва.

Хобби: Рисование, моделирование женских костюмов.

Творчество: Еще с раннего возраста начала писать стихи и небольшие рассказы. Многократно публиковалась в школьной газете. Роман «Т@КЕШ» первая серьезная работа автора, которая, скоро появится в печати.

СТИХИ ИЗ РОМАНА «ТАКЕШ»

***

Вот расстались мы уже,
Пала тень разлуки.
Рана в сердце, боль в душе,
Замерзают руки.

И глазам слезы не жаль,
Слезы ливнем льются.
Из окна смотрю я вдаль,
В небе вихри вьются.

Гармонично все вокруг:
Холод, я, метели…
Получилось все так вдруг,
Так как не хотели.

Неужели все обман?
Мы друг другу лгали?
И исчезло как туман
Все о чем мечтали?

И то, что ты любил меня,
Слова твои и нежность,
Тайна ночи, счастье дня,
Покой и безмятежность.

И то, что я была твоей
Любовью долгожданной,
С каждым днем еще
родней,
Каждый день желанной.

Нет! Все было! Все - не
ложь!
Так думать не посмеешь!
Даже если ты уйдешь,
Забыть ведь не сумеешь…

Я простить тебя могла,
Я ждала прощенья.
Но ты сжег мосты дотла!
Принято решение!

Вот, замкнулся этот круг,
Конец мечте бурлящей.
Испугался ты, мой друг,
Любви настоящей!

***

На последок ты сказал, душу мне раня,
«Я забуду о тебе, не пройдет и дня…

Больно вспомнить прошлое, знаю. Не грусти!
В сердце нет того огня, разлюбил, прости!

То, что было до сих пор, это не вернуть!
Не судьба нам вместе быть, прошу, меня забудь!»

Я примеру твоему, желая подражать,
Так усердно, день и ночь, училась забывать.

Были дни, которых мне трудно вспоминать.
И все мысли о тебе прочь хотела гнать.

Одинокие ночи не хотелось жить.
Я не знала до утра как же мне дожить.

Все пыталась вычеркнуть сладкие мечты.
Не сумела, не смогла… Я - это не ты!

И глаза и образ твой, вспоминая вновь,
Подтверждала истину: ты – моя любовь.

По тебе, душа моя, тоскую и скорблю.
С каждым днем еще сильней Я ТЕБЯ ЛЮБЛЮ!

***

На распутье

Вот стоим мы на распутье,
Перед нами три пути.
Но, один из них нам только
Предначертано пройти.

Мы решаем уравнение:
Неизвестных чисел три.
Выбор трудный, без сомнения,
Холодеет все внутри…

Три вопроса, три дилеммы,
Как же к ним найти подход?
Вот на шахматной доске мы,
Надо сделать верный ход.

Подождать, иль оглянуться,
Или мчаться напрямик?
Путь нам может приглянуться,
Но окажется - тупик.

Даль неведомой дороги
Как ни странно, манит нас…
Но застыв, мы на пороге,
Упускаем звездный час.

Так стоим, вот, на распутье,
Ожидая свой черёд.
Тратим время на раздумья,
Шаг назад и шаг вперед…

Rusiya: *arzular və imkanlar ölkəsi*



Dr. Elnur Nəsirov,
Xəzər Universitəsi, Siyasi Elm və Beynəlxalq Əlaqələr Departamenti

Tarix fəlsəfəsi və sosiologiya elminin atası hasab edilən tarixçi və siyasət nəzəriyyəçisi İbn Xəldun (Tunis 1332-1406 Qahirə) dövlətləri insan orqanizminə bənzədirdi. Alim deyirdi ki, dövlətlər də insanlar kimi doğulurlar, uşaqlıq və gənclik dövrlərini yaşayıb, nəhayət, özlərinin ən güclü dövrünə çatırlar, sonra yavaş-yavaş zəifləyərək ortayaşlılıq, yaşlılıq və qocalıq dövrlərini başa vuraraq ölüb gedir, tarix səhnəsini tərk edirlər.

Vaxtilə dünyanın iki "super„ dövlətindən birinin vətəndaşı olmaq SSRİ vətəndaşlarında, xüsusilə də ruslarda məxsusi bir psixologiya və qürur hissi yaratmışdı. Buna görə də, SSRİ-nin dağılması ruslarda ağır psixoloji travma və ruh düşkünlüyü ilə müşayiət olunmuşdu. Rus intellektuallarının mühüm bir qismi, xüsusilə də ali bürokratiya "velikorus" ideyasının gerçəkləşməyəcəyinə inanmaq əsla istəmir, yeni iqtidardan "Rusiyanın hələ də dünyanın ən güclü ölkələrindən biri olduğunu" hamıya sübut etməsini gözləyirdilər.

Lakin iqtisadi problemlər və beynəlxalq siyasətdəki reallıq Rusiyanın yenidən dünyanın güclü dövlətlərindən birinə çevrilə bilməsi üçün həll etməli olduğu çoxlu „ev tapşırığı"nın olduğunu göstərdi. Bundan başqa, başda ABŞ olmaqla Qərb dövlətləri Rusiyanın „SSRİ kimi olmaq" arzusunun qarşısını cidd - cəhdlə alırdılar. Yeltsin 1990-cı illərin əvvəllərində iqtidarının dəstəklənməsi arzusu ilə Qərblə əlaqələrini müsbət müstəvidə inkişaf etdirsə də, 1994-cü ildən sonra "velikorus" intonasiyasını xatırladan tərzdə çıxışlar etməyə başladı. Moskva nə Qərblə əlaqələrin müsbət inkişafından, nə də şovinist istəklərdən əl çəkə bilirdi.

Rusiyanı, bütün daxili və xarici problemlərinə baxmayaraq, beynəlxalq siyasi arenada mühüm fiqurlardan birinə çevirən bir çox amil var. Hər şeydən əvvəl, Rusiya ərazisinə görə dünyanın ən böyük ölkəsidir. Bu isə zəngin karbohidrat ehtiyatlarına malik olması ilə birlikdə onun geostrateji əhəmiyyətini artırır. Rusiya dünyanın ikinci böyük nüvə dövlətidir. 1994-cü ildən etibarən iqtisadi cəhətdən inkişaf etmiş 7 ölkə ilə birlikdə G-8-in üzvüdür.

Bütün bunların fərqində olan ABŞ Rusiya ilə əlaqələrini daim normal səviyyədə saxlamağa üstünlük verir. Xüsusilə də 11 sentyabr hadisələrindən sonra Rusiyanın MDB və Orta Şərq coğrafiyasındakı tarixi rolunu nəzərə alaraq, Rusiya ilə zidd mövqelərdə dayanmamaq siyasətini güdür. Lakin bu, iki ölkə arasında mübarizənin olmadığını ifadə etmir. Hətta vaxtaşırı olaraq biz iki ölkə rəsmilərinin söz duelinə çıxdıqlarının da şahidi oluruq. Siyasi rəqabətdə hələ ki, üstünlük ABŞ-dadır. Rusiya MDB sahəsində, xüsusilə də Qafqazda ABŞ-la girişdiyi nüfuz mübarizəsində məğlub olmuşdur. Bunun ən bariz nümunələrindən biri NATO-nun 2004-cü ildə Rusiya sərhədlərinə qədər genişlənməsi olmuşdur. Son hadisələr, yəni Gürcüstanla "5 günlük müharibə"nin ardınca gələn hadisələr, Rusiyanın başda ABŞ olmaqla Qərb dövlətləri tərəfindən ciddi şəkildə sıxışdırılması isə onu göstərir ki, Rusiya Cənubi Qafqazdakı mövqeləri ilə tamamilə üzüləşməli olacaq. Əgər hadisələrin hazırkı inkişafında ciddi bir dönüş olmasa, yaxın vaxtlarda Rusiyanın Cənubi Qafqazdakı son dayaq nöqtəsi olan Ermənistan köhnə dostu ilə yollarını ayırmalı olacaq.

Xarici ticarətdə Avropa İttifaqı ölkələri Rusiyanın əsas partnyorlarından biridir. Rusiya ixracatının Aİ ölkələrinə düşən payı 35%-dir. Lakin Çeçenistandakı haqsız müharibə, Şimali Qafqazda dinc əhaliyə qarşı tətbiq edilən dövlət terroru, mətbuat və ifadə azadlığının boğulması, Pribaltikada rusların hüquqlarının qorunması, Dünya Ticarət Təşkilatına üzvlük kimi məsələ-

lər Aİ ilə Moskva arasındakı əlaqələrin vaxtaşırı kəskinləşməsinə səbəb olur. Rusiyanın Aİ ölkələrini xüsusən də qış aylarında enerji şantajına məruz qoyması mövzusuna əvvəlki yazılarımızda toxunmuşduq. Ümumiyyətlə, keçən avqust ayına qədər Moskvanın beynəlxalq və regional siyasi məsələlərdə Aİ-dən daha çox Vaşinqtonla ortaq dil tapa bildiyini deyə bilərik. Bununla yanaşı, Moskvanın son dövrlərdə Paris və Berlinlə əlaqələrində inkişaf müşahidə olunurdu.

Rusiya dünyanın ən zəngin ölkələrindən biridir. Dünyadakı mövcud xammal, enerji və bioloji mənbələrin 35% -i Rusiya ərazisindədir. Ölkə dünyadakı alüminium, platin, nikel, uran kimi strateji xammal mənbələrinin yarısına sahibdir. Dünyadakı əkinə yararlı torpaqların təqribən 17,5%-i, qeyri-tropik meşə sahələrinin isə 46% -i Rusiyanın payına düşür. Rusiya enerji ixracatına görə dünyada 7-ci yeri tutur. Dünyada istehsal olunan neftin 13%, təbii qazın 32%, kömürün 11%, dəmirin 26%, qurğuşunun 10% və sinkin 15% -i Rusiyanın payına düşür. Rusiyanın milli sərvətinin 85%-ini təbii sərvətlər təşkil edir. Halbuki inkişaf etmiş ölkələrdə bu nisbət 10% -i keçmir.

RF Təbii Sərvətlər Nazirliyinin 2004-cü ilin yanvarında açıqladığı rəqəmlərə görə Rusiya dünyada nikel, gümüş, volfram və almaz (Rusiyanın almaz ehtiyatları bütün dünya ölkələrininkinin cəmindən daha çoxdur) ehtiyatlarına görə dünyada 1-ci, platin və titan ehtiyatları baxımından 2-ci, dəmir filizi, molibden, kobalt ehtiyatlarına görə 3-cü, sink ehtiyatlarına görə 4-cü yeri tutur. Göründüyü kimi, Rusiya qlobal kapitala, söz yerində isə, "gəl-gəl" deyir.

Neftin qiymətinin sürətlə artması 1998-ci ildə ağır iqtisadi böhran keçirən Rusiya üçün göydəndüşmə olmuşdu. Belə ki, son illərdə ölkə sürətlə inkişaf edir, inflyasiya azalır, xarici ticarət balansı yüksəlir, büdcə kəsir vermə məklə yanaşı hətta artıq çıxarır, xarici borclar vaxtında ödənir, valyuta ehtiyatları artır və s. Ən azından yaxın vaxtlara qədər belə idi. Neftin ucuzlaşması və son maliyyə böhranı nəticəsində Rusiyanın bir neçə həftə ərzində itkilərinin 60 milyard $-a çatması bunun heç də belə davam etməyəcəyini göstərir.

İqtisadi inkişaf böyük ölçüdə neft və qaz ixracatından asılıdır. Rusiyanın ixracatının 60%-i enerjinin payına düşür. Rusiya 2004-cü ildə neft və qaz ixracatının ÜDM-dəki payının 9% olduğunu açıqlasa da, həmin il Dünya Bankı bunu təkzib etmiş və bu rəqəmin ən azı 25% olduğunu bildirmişdi. 2003-cü ildə Rusiyanın xarici ticarət həcmi sıçrayışla artmış, 25% artımla 191,1 milyard $ - a çatmışdı. 25,3% artımla 133,7 milyard $ - a çatan ixracat, təqribən eyni nisbətdə artaraq 57,4 milyard $ olmuş idxalatdan 76,3 milyard $ daha çox idi. 2005-ci il rəsmi rəqəmlərinə görə isə ixracat 241,3 milyard $, idxalat isə 98,5 milyard $ olmuşdu.

2003-cü il göstəricilərinə görə, RF-nın xarici ticarət partnyorları sıra ilə belə olmuşdur: Almaniya (16,8 milyard $; artım 28,5 %) Hollandiya (11,6 milyard $; 65,1 %), İtaliya (10,8 milyard $; 35,6 %), Çin (10,7 milyard $; 33,3 %), ABŞ (6,7 milyard; 23,1 %), Türkiyə (5,9 milyard; 46,2 %), Finlandiya (5,9 milyard; 29,5 %). Rusiyaya əmtəə və xidmət ixrac edən əsas ölkələr Almaniya, Belarus, Ukrayna, Çin, ABŞ və İtaliyadır.

Rusiyanın əsas gəlir mənbələrindən biri də silah satışından əldə edilən gəlirlərdir. 2003-cü ildə Rusiya silah satışından 5,4 milyard $ gəlir əldə etmişdi. Bu isə bir ildə 0,6 milyard artım demək idi. 2002-ci ildə bu rəqəm 4,8 milyard $ olmuşdu. İxrac etdiyi müdafiə sənayesi mallarının 70 %-i hava, 15 %-i dəniz, 8%-i quru qoşunlarına aid silah və ləvazımatdır. Rusiya silah satışına görə dünyada 2-ci yeri tutur. Dünyada silah satışının 40%-i ABŞ, 19%-i Rusiya, 18,5%-i İngiltərə və 7%-i Fransanın payına düşür.

Bütün bunlara baxmayaraq, Rusiya hələ də dünyanın ən kasıb ölkələrindən biridir. Rusiyanın ən varlı adamları Kremldə oturan iri dövlət məmurları və oliqarxlardır. Yoxsulluq Rusiyanın ən ciddi problemlərindən biridir. Ölkə əhalisinin 40%-i özünü yoxsul hesab edir, özünü varlı hesab edənlərin nisbəti isə 7 %-dir. Rəsmi rəqəmlərə görə, 2004-cü ildə əhalinin 18,7 %-i, yəni 26,7 milyon insan yoxsulluq həddinin altında yaşayırdı.

Belə bir şəraitdə dünyanın ən varlı adamları arasında Rusiya vətəndaşlarının adının yazılması da bu ölkənin başqa bir mühüm cəhətidir. Dollar milyarderlərinin sayına görə Rusiya ABŞ və Almaniyadan sonra dünyada 3-cü yeri tutur. Forbes jurnalının 2004-cü il fevral ayı statistikasına görə, Rusiyada 36 dollar milyarderi yaşayırdı. Bunların 33-ü Moskvada yaşayır. Bu da Moskvanı ən çox dollar milyarderi yaşayan şəhərə çevirib. Bu milyarderlərin mənşəcə yəhudi olması isə işin başqa bir maraqlı tərəfidir. Sırada Mixail Xodorkovski ("Yukos"un həbsdəki prezidenti, 15,2 milyard $) birinci, Roman Abramoviç

(Sibneft, 12,5 milyard $) ikinci, Viktor Vekselberq (Sual Holdinq, 5,9 milyard $) isə üçüncüdür. Rusiya milyarderlərinin sərvətinin cəmi Rusiya ÜDM-nin 1/4-nə bərabərdir.

Ölkədə gəlir bölgüsündəki ədalətsizlik dəhşətverici həddədir. Əhalinin ən varlı 10%-lik qismi bütün milli gəlirin 35%-ni əllərində saxlayır. Ən yoxsul 10 % isə cəmi 2,5 %-ni. Yəni aradakı fərq 14 dəfədir. Qərbi Avropa ölkələrində bu fərq maksimum 7 dəfədir. 2003-cü ildə əhalinin gəlirləri 13%, oliqarxların gəliri isə 240% artmışdır. Aradakı uçurumun belə qorxunc həddə olmasının əsas səbəblərindən biri də SSRİ-nin dağılma prosesi və ondan sonrakı proseslərdə özəlləşdirmənin düzgün aparılmaması, daha doğrusu, qeyri-qanuni aparılması olmuşdur. Ən azından rusiyalılar belə düşünürlər. Əhalinin 77%-i aparılmış özəlləşdirmədən narazıdır.

Dövlət səhiyyə, təhsil xidmətlərinin verilməsi, eləcə də dövlət sektorunda işləyənlərin maaşlarının ödənilməsi kimi məsələlərdə ciddi problemlərlə üz-üzədir. 2004-cü ildə orta əmək haqqı 250 $, orta təqaüd isə 75 $ səviyyəsində olmuşdur. İşsizlik də Rusiyanın ən çətin problemlərindən biridir. Rəsmi statistikaya görə, əhalinin 70%-i "qeyri-insani şəraitə malik mənzillərdə" yaşayır. Putinin seçkiqabağı "indi əhalinin 10%-nin yaşadığı şəraitdə 2010-cu ildə əhalinin 1/3-i yaşayacaq" vədinin söz verilmiş vaxtda gerçəkləşməsi mümkün deyil.

Ölkədə əhalinin sayı azalır, aşağı səviyyəli səhiyyə xidməti, xəstəliklər, içki və narkotiklərin istifadəsinin artması nəticəsində ölüm faizi yüksəlir. Son bir neçə il ərzində Rusiyanın əhalisi 750-800 min nəfər azalmışdır. Bu, millətin genefondunun gələcəyi və gələcəkdə iş qüvvəsi baxımından təhlükəlidir. Bu gün əhalisinə görə dünyanın 7-ci ölkəsi olan Rusiyanın XXI əsrin ortalarında əhalisinin azalaraq 100 milyona enməsi gözlənilir. Nikahlar azalır, boşanmalar çoxalır, nikahsız birlikdə yaşamaların sayı artır. 2003-cü ilin ilk on ayında 855,5 min nikah, 715,7 min boşanma qeydə alınmışdır. Ailələrdə uşaqların sayı ya 1-dir, ya da yoxdur. Rəsmi statistikaya görə, illik spirt istehlakı adambaşına 14 litrdir. Bu, adambaşına 70 şüşə yarımlitrlik alkoqollu içki deməkdir. Rusiyada ölümlərin 1/3-i (təqribən 500 min) alkoqollu içki səbəbilə baş verir. Ölkədə 4 milyondan çox narkotik maddə istifadəçisi, 1 milyondan artıq QİÇS (AIDS) xəstəsi var. QİÇS xəstələrinin 8 minə yaxını uşaqlardır. Hər il 3500 vətəndaş bu xəstəlikdən ölür. 4 milyondan çox küçə uşağı var. Rusiya mütəşəkkil cinayətkarlığa görə də dünyada ilk yerlərdən birini tutur. 2003-cü ildə ölkədə 2 milyon 750 minə qədər cinayət hadisəsi qeydə alınmışdır. Statistikaya görə, Rusiyada dəqiqədə 5 cinayət hadisəsi baş verir. Ən çox oğurluq və qarət kimi cinayətlər törədilir. Korrupsiya və rüşvətxorluq hallarına görə Rusiya dünyanın 133 ölkəsi arasında 86-cı yerdədir (http://www.transparency.org).

Belə şərtlər altında Putin və Medvedyev dünyanın böyük siyasi qüvvəsinə rəhbərlik edən siyasətçidən daha çox, arzuları ilə imkanları üstüstə düşməyən çaşqın adama daha çox oxşayırlar. "Soyuq müharibə" dövrü çoxdan keçib və bir daha başlayacağı da çox uzaq bir ehtimaldır. Çünki soyuq müharibə iki dövlətin deyil, iki ideologiyanın toqquşması nəticəsində meydana çıxmışdı. Bu ideologiyalardan biri artıq yoxdur, daha doğrusu, nəhəng hərbi-siyasi güc tərəfindən təmsil olunmur. Digəri isə inkişafının zirvəsini fəth edərək, indi üzü aşağı enməyə doğru üz tutub. Dəmir pərdənin yenidən çəkilməsi üçün ideoloji səviyyədə heç bir əsas yoxdur. Belə bir şəraitdə soyuq müharibədən yox, Rusiyanın özünü təcrid etməsindən söhbət gedə bilər. Rusiya isə bunu istəsə də edə bilməz. Rusiyanı idarə edənlər bəsit bir həqiqəti ya görmürlər, ya da qəbul etmək istəmirlər; böyük dövlət olmaq üçün dövlət idarə etdiyi xalqla barışıqda olmalıdır, idarə etdiyi xalqla barışıq olması üçün ölkədə rifah səviyyəsi yüksək olmalı, insanlara bərabər imkanlar təklif edilməlidir, rifahın yüksək olması üçün şəffaf siyasətə və liberal iqtisadiyyata ehtiyac var. Bu ikisi, yəni şəffaf siyasət və liberal iqtisadiyyat tətbiq olunmadan hər hansı bir dövlətin uzun müddət üçün hərtərəfli tərəqqisindən danışmaq ümumiyyətlə yersizdir. Doğrusu, Rusiya həqiqətən çıxılmaz vəziyyətdədir. Rusiyanın bu gün şəffaf siyasət və liberal iqtisadiyyatı mənimsəməsinin bir neçə il sonra məzkəzdənqaçma meyllərini artıracağı şübhəsizdir. Rusiyadakı federativ sistem şəffaf siyasət üçün həddən artıq kövrəkdir. Lakin müasir dövrdə belə böyük bir federasiyanın mövcud üsullarla idarə olunması nə vaxta qədər davam edəcək? Bunu demək çətindir. Rusiya bugünkü vəziyyəti ilə daha çox Bizans imperiyasının XIII-XIV əsrlərdəki halını xatırladır. Həmin dövrdə Bizans taxtına güclü şəxs oturanda dövlət güclü görünürdü, hakimiyyətə zəif iradəli hökmdarın gəlməsi isə dövlətin zəifləməsinə səbəb olurdu.

Lirik rakursdan



XƏZƏRİN MAVİ SİRLƏRİ...

Bizim Xəzərimiz dünya sularının şahı, Bakının yaraşığı, bərq vuran incisi, canımız, anamız, sevgi nəğməmiz, doya bilmədiyimiz tarixi eşqimizdir. Xəzərdə xalqımıza məxsus möhtəşəm bir məğrurluq, qürur, qorxmazlıq və əbədi qəhrəmanlıq var.

Kiçik qayaların üzərində oturub ona saatlarla baxmaq, ləpələrinin həzin və kövrək pıçıltısını, dalğalarının şaqraq musiqisini dinləmək, yaxud, pəncərəni açarkən onun cazibədar "dəniz" qoxusunu hiss etmək necə doğma və əzizdir!

Mavi Xəzərimiz müxtəlif dövrlərdə çox iztirablı tarixi günlərin, qanlı həlledici döyüşlərin, inqilabların, mitinqlərin, azadlıq haraylarının, qurtuluş səslərinin, qələbə günlərinin canlı şahidi olub. Lakin o heç zaman sarsılmayıb və Bakımıza böyük dayaq olub. Məgər belə bir dənizə vurulmamaq, onu sevməmək mümkündür?! Əsla və əsla...

Yaxşı olar ki, tarixə bir nəzər yetirim. Belə ki, bu nadir təbiət incisi haqqında ən qədim yazılı faktlara Assuriyanın gil qabları üzərində rast gəlinir. Məşhur tarixçilər Hekatey Miletli və Herodotun əsərlərində Xəzər dənizi "Kaspiy" və "Hirkan" adları ilə göstərilmişdir. Xəzəri sevən və onun sahillərində məskunlaşan xalqlar isə tarix boyu müxtəlif dövrlərdə bu dənizə 70-ə qədər ad vermişlər.

Xəzər dənizi həm də dünyada ən böyük göldür; belə ki, onun heç bir okeanla, yəni iri su hövzələri ilə əlaqəsi yoxdur. Hal-hazırda dünya ölkələrini zəngin neft və qaz yataqları ilə özünə cəlb edən Xəzər fauna və florasının müxtəlifliyi və zənginiyi ilə də ayrı bir aləmdir.

Xəzər dənizində 111 balıq növü mövcuddur və onların hər biri ləzzətli və dadlıdır. Bunlardan nərə, uzunburun, qızılbalıq, siyənək, çəki, xəşəm, kefal və şahmayının adını çəkməmək mümkün deyil. Bakıya təşrif buyuran xarici qonaqlar Xəzər balıqlarının ləzzətli tamına heyran qalırlar və bir çoxları düşünür ki, xalqımızın gümrah, sağlam, ətli-canlı olmasında bu balıqların payı az deyil. Xəzərin narın qızılı qumu isə bir çox xəstəliklərin müalicəsində xeyirlidir.

Mavi dalğaların üzərində yerləşən, ümumi uzunluğu 400 km-dən çox olan estakadalar insanda bir azərbaycanlı kimi qürur hissi oyadır. "Neft Daşları" xalqımızın zəhmətkeş, bacarıqlı, Xəzərin hər xüsusiyyətinə bələd oğullarımızın yaratdığı ən möhtəşəm quruculuq işlərindən biridir. Dalğalar üzərində yaşayıb-yaratmaq nə qədər çətin, təhlükəli olsa da, bizim igidlərimiz artıq buna vərdiş ediblər.

Bu dəli-dolu dənizin özünəməxsus və təhlükəli xüsusiyyətlərindən biri də onun səviyyəsinin mütəmadi qalxıb enməsidir. Xəzər dənizinin səviyyəsi sürətlə artaraq 1995-ci ildə ən yüksək həddə çatmışdır. 1996-2000-ci illərdə 35 sm ensə də, bu göstərici özünü çox gözlətmədən 2001-2005-ci illərdə yenidən 30 sm-ə qədər yüksəlmiş, 2006-cı ildə isə 3-5 sm-ə qədər enməsi müşahidə edilmişdir. Alimlərin gəldiyi nəticələrə əsasən, Xəzərin belə xüsusiyyəti iqlim elementləri və onun dünya okeanı ilə heç bir əlaqəsinin olmaması ilə əlaqədardır. Proqnozlar isə Xəzər dənizinin 2015-2020-ci illərdə 70-80 sm qalxacağını göstərir.

...Uşaqlıqda Xəzərin sahilində saatlarla oynadığım, bir-birindən gözəl balıqqulaqları yığdığım, narın qumunda rəsmlər çəkdiyim, ləpələrinin ilahi musiqisini dinlədiyim, çox uzaqlarda boylanan kiçik suitilərinə tamaşa etdiyim günlər həyatımın ən xoş xatirələridir. İndi bütün mövsümlərdə Xəzər sahilinə getməyi xoşlayıram. İnadkar Bakı küləkləri ilə birləşib qəzəbləndiyi, hirsini boğa bilmədiyi günlərdə onunla ünsiyyətim daha mənalı olur. Anlayıram ki, onun böyük gücü elə onun hələ heç kimin dərk edə bilməyəcəyi sirlərindədir.

Əgər siz həyatın insanı yoran, bəzən sarsıdan qayğılarından bir anlığa uzaqlaşmaq istəyirsinizsə, Xəzərə üz tutun. O sizə əsl insanlıqdan, məhəbbətdən söz açacaq...

Günel MUSTAFAYEVA

90-cı illər artıq müstəqillik illəridir, yeni tarixi mərhələdir, yenidənqurmanın köklü transformasiyası dövrüdür. Görkəmli teatrşünas M.Əlizadə yazır ki, «müstəqillik uğrunda mübarizə, elan olunmamış müharibə və bazar iqtisadiyyatına keçidin ilk mərhələsinin son dərəcə ağır iqtisadi şərtləri, inflyasiya və istehsalat səviyyəsinin aşağı düşməsi və bu kimi proseslər hər hansı mədəni proseslərin ehtiyaclarını «gündəlikdən» silməyə qadirdir. Siyasi sabitsizlik fonunda baş verən siyasi-iqtisadi, sosial-ictimai hadisələr teatr prosesini bu vaxta qədər rastlaşmadığı problemlərlə üz-üzə qoydu. Məsələ ondadır ki, bu böhran xarakterli problemlər zahirən sağlam və müəssisə kimi fəaliyyətdə olan teatrların içində getdiyinə görə təhlükəlidir. Bu mərəzin latent (gizli, qapalı) mərhələsində teatr prosesinin dayaq kateqoriyalarının etibardan düşməsi təhlükəsi heç də mücərrəd məsələ deyil. Birinci növbədə zərbə altına düşən teatr düşüncəsinin psixoloji motivasiyası (məqsədlərin əsaslandırılması) və yaradıcı enerji qaynaqlarıdır. Bu iki məsələ yetərsiz hala düşdükdə prosesin dinamikası zəifləyir və halqavari reaksiya kimi digər önəmli səciyyələrə təsir göstərməyə başlayır. Yetmiş il dövlət sistemi tərkibində müəyyən ideoloji və iqtisadi nəzarətin altında baş verən teatr prosesi mütləq azadlıq şəraitində gərəksizlik sarsıntıları burulğanında fırlanaraq öz missiyasını yerinə yetirməkdən məhrum olur» (1, s.192).

öz sənət tarixlərinin çətin və başlanğıc mərhələsini yaşayırlar. Düzdür, bu zaman bir sıra digər teatrlar da kommersiya məqsədi ilə açılır, lakin onlar vəziyyətin ağırlığına tablamayıb tezliklə də öz fəaliyyətlərinə xitam verirlər. Elə məhz bu zaman Azərbaycan teatrşünaslığının leksikonunda «teatr qanunu», «teatr sosiologiyası», «teatr iqtisadiyyatı», «teatr ideologiyası», «teatrın statusu» kimi ifadələr fəallaşır. Bu onunla əlaqədar idi ki, Azərbaycan teatrının aparıcı mövqedə qərarlaşmış nümayəndələri həm teatrın, həm də özlərinin cəmiyyətdə yerini müəyyənləşdirməyə, yeni sosial-iqtisadi münasibətlər şəbəkəsində mövqeyini konkretləşdirməyə çalışırdılar. Deməli, buradan belə bir nəticə çıxır ki, 1990-cı illərdəki müstəqillik dönəmi teatr prosesini fəallaşdırdı, teatr düşüncəsini daha fəal işləməyə vadar etdi. Bu da onunla nəticələndi ki, Azərbaycanda 1992-ci ildən 2000-ci illərin əvvəllərinə qədər mütəmadi surətdə festivallar keçirildi.

Ədalət VƏLİYEV,
sənətşünaslıq namizədi

XX ƏSRİN SONUNDA MİLLİ ÖZÜNÜDƏRK PROSESİ VƏ «AZƏRBAYCAN CƏMİYYƏTİNDƏ TEATRIN YERİ» PROBLEMİNİN AKTUALLAŞMASI

(üçüncü məqalə)

90-cı illərdə milli şüur son 70 il müddətində öz inkişafının ən yüksək səviyyəsinə çatmışdı. Əgər 1985-90-cı illərdə bu milli şüur özünü ədəbiyyat və incəsənətdən savayı heç nədə ifadə edə bilmirdisə, artıq 90-cı illərdə onun özünü gerçəkləşdirməsindən ötrü ictimai-siyasi platforma meydana gəlmişdi. Yenidənqurma iqtisadi-sosial məsələləri önə çəkdiyi halda, 90-cı illər siyasi-ideoloji problemləri aktuallaşdırmışdı. Azərbaycan cəmiyyəti 1990-cı ildən etibarən artıq siyasiləşmiş bir cəmiyyətə çevrilmişdi. Bu mərhələdə çoxlarının iqtisadi durumu kəskin şəkildə pisləşsə də, xalqın müstəqillik və azadlıq amalı möhkəmlənmişdi, ali ideya meydana gəlmişdi. Əbəs deyil ki, insanların dilindən bu mərhələdə «Qarabağ» və «Azadlıq» kəlmələri düşmürdü. Bu eyni zamanda onu bildirirdi ki, yenidənqurmanın ideoloji xaosuna son qoyulmuşdur.

Bəlkə də elə bunun nəticəsidir ki, məhz 1990-cı ildən sonra Azərbaycanda teatrların sayı artmağa başlayır. «İlham» miniatür teatrı, «Dəli yığıncağı» pantomim studiyası Gənc Tamaşaçılar Teatrının nəzdində tam müstəqil qurumlar kimi fəaliyyət göstərir. Elə bu arada Azərbaycanın xalq artisti C.Səlimovanın rəhbərliyi altında Bakı Kamera Teatrı, Azərbaycanın xalq artisti A.Pənahovanın rəhbərliyi altında Bakı Bələdiyyə Teatrı

Festivalların əsas məqsədi teatr axtarışlarını stimullaşdırmaq, gənc nəslin maraqlı nümayəndələrini meydana gətirmək idi. Təsadüfi deyil ki, bu dövrdə hər bir teatr var gücü ilə çalışırdı ki, monotamaşalar, eksperimental tamaşalar, pantomim festivallarında iştirak etsin, bacardıqca orijinal proyektlərlə çıxış elə-sin, özünü teatr ictimaiyyətinə tanıtsın. Bu məqsədlə də ildən-ilə Azərbaycan sənətçilərində, xüsusilə gənclərdə bu festivallarda iştirak etmək, axtarışlar aparmaq həvəsi, meyli güclənirdi. Odur ki, Azərbaycan teatr üfüqlərində tez-tez baxılası maraqlı yeni tamaşalar tapmaq olardı. Festivallar teatrların yeni üslub və qayədə fəaliyyət göstərmələrini stimullaşdırırdı. Əbəs deyil ki, Azərbaycanın müxtəlif teatrlarında çoxlu mono və eksperimental tamaşalar hazırlanırdı və bu işə əyalət teatrları da böyük həvəslə qoşulmuşdular. Fikrimizi bir az başqa şəkildə də ifadə etmək mümkündür: 90-cı illərdə Azərbaycanda teatr dəbini müəyyənləşdirən qeyri-rəsmi institut teatr festivalları idi. Həmin bu dövrün sonuncu festivalı 1998-ci ildə keçirildi. II Eksperimental Tamaşa-

lar Festivalında cəmi on tamaşa göstərildi. Bu festival Azərbaycan teatr mühitinin bir neçə aktual problemini öncələdi. Əvvəla, festival aşkarladı ki, Azərbaycanda 90-cı illərdə yaşanan festival onilliyi artıq öz apogeyini keçmişdir. İkincisi budur ki, festival ideyası teatr sənətçilərini müsabiqə, yarış amilinin azalması ucbatından daha cəlb eləmir. Və nəhayət, üçüncüsü bu idi ki, festivalın heç bir tamaşası yeni teatr ideyasının daşıyıcısı deyildi. Amma bununla bərabər, biz son dərəcə muhum bir amili qeyd etməliyik ki, teatr festivalları 90-cı illər kontekstində öz missiyalarını ləyaqətlə yerinə yetirdilər və Azərbaycanda teatr həyatının fəallaşmasına səbəb oldular.

1998-ci ildə aydın şəkildə göründü ki, 90-cı illər müstəvisində festival ideyası artıq özünü tükədib. Bundan əlavə, qaçılmaz bir həqiqətdir ki, 1994-98-ci illər intervalında dalbadal yeddi festivalın keçirilməsini Azərbaycan teatr mədəniyyəti tam keyfiyyətli «məhsul»la təmin edə bilməzdi. Kəmiyyət baxımından da Azərbaycan teatrı buna hesablanmamışdı. Ancaq bununla belə, Teatr Xadimləri İttifaqının keçirdiyi bu festivallar teatr axtarışlarının ümumi səviyyəsinin artmasına, teatr prosesinin canlanmasına yaxından kömək göstərdi.

Azərbaycan teatr mədəniyyəti tarixinə 90-cı illərin teatr faktı kimi daxil olmuş bu hadisələri təkrarlamaqda məqsədimiz bir məsələyə diqqəti çəkməkdir. Bütün bu festivallar Azərbaycan Respublikasının müstəqilliyinin və bu məmləkətdə özünü hər sahədə görükdürməyə başlayan demokratiyanın təzahürü idi. Bundan əlavə, Bakıda gerçəkləşən müxtəlif məqsədli festivallar teatr sənətçilərinin birbaşa şəkildə iradəsini ifadə edirdi. Yəni həmin festivalların təşkilatçısı dövlət strukturları yox, Teatr Xadimləri İttifaqı idi. Əlbəttə, Teatr Xadimləri İttifaqı da bunu təkbaşına reallaşdırmırdı, müxtəlif sponsorları öz ətrafına cəmləyirdi.

Bu xüsusda biz yenidən teatrşünas M.Əlizadəyə müraciət etmək istərdik. O yazır: «Müstəqillik dövrümüzə bu mənada nəzər salanda teatr prosesinin üst qatında baş verən hadisələri aşkarlamaq olur. Basqıdan qurtulmuş teatr çürümüş strukturlara zərbə endirdi: tarixi olayların elə ilk mərhələlərində respublikada canlı prosesə uyğun və yalnız inzibati şərtlərlə mövcud olan teatrların sayı aşkarlandı. Məlum oldu ki, sovet vaxtında açılmış və «əhaliyə mədəni xidmət göstərən» teatrlar canlı yaradıcı prosesin tələblərivlə deyil, planlı müəssisə formasında fəaliyyət göstərirdi. Müstəqil və sərbəst proseslərin nəticəsində deformasiya olunmuş poetikanın bərpası başlandı, proseslər bitmədiyindən bu gün poetikanın yalnız bir səciyyəsinin köklü surətdə dəyişməsini qeyd edə bilərik: prosesin təzahürü olaraq milli teatr düşüncəmizdə problemə baxım bucağı tamamilə dəyişdi. Artıq yeni (və ya unudulmuş əski) dəyərlər sistemi hər hansı problemə baxım bucağını təyin edir. Təbii ki, burada biz vahid konseptual yanaşmadan söz aça bilmərik, çünki baxım bucağının dəyişməsi bir çox məqamlarda əski sistemə kəskin etiraz xarakteri daşıyır. Amma teatr prosesinin universallığını nəzərə alsaq, etirazın düşünüşlü və əsaslandırılmış mövqe ilə əvəz olunmasını proqnozlaşdıra bilərik. O ki qaldı konflikt və dil ifadə vasitələrinin yeniləşməsinə, burada vəziyyət daha mürəkkəbdir: yeniləşməyə əngəl olan obyektiv və subyektiv amillər hələ də çox güclüdür. Obyektiv amillərdən başlıcası elə teatr prosesinin universallığından qaynaqlanır: konfliktə münasibət yalnız evolyusiya yolu ilə dəyişə bilər. Bunun üçünsə zaman və gərgin intellektual iş lazımdır» (3, s.197). Bu fikirlər M.Əlizadə tərəfindən 1998-ci ildə qələmə alınıb. Bizsə, M.Əlizadədən təqribən 10 il sonra məsələyə bir də qayıdırıq. Nə üçün bu məqamı xüsusilə vurğulamağı lazım bilirik? Məsələ ondan ibarətdir ki, Azərbaycanda artıq «Teatr qanunu» qəbul edilib, Azərbaycan mədəniyyətinin inkişaf konsepsiyası işlənib hazırlanıb. Lakin bütün bunlara baxmayaraq, çağdaş Azərbaycan teatr mədəniyyətinin paradoksları yenə də qalmaqdadır.

Belə ki, Azərbaycanın teatr sənətçiləri, əlbəttə ki, başda rejissorlar olmaq şərtilə, 70-80-ci illərdə dövlət strukturlarının müdaxiləsindən, özlərinin tam yaradıcı sərbəstlik əldə edə bilməmələrindən, bədii şuraların təzyiqindən şikayətlənir, gileylənirdilər. Bir tərəfdən yaradıcı insanlar kimi onlar haqlı idilər: yaradıcı insan üçün kənar volyuntarizm, dişarıdan iradə təlqinilə diqtə yolverilməz haldır. Digər tərəfdən isə, sovet dönəmində teatrların hamısı dövlət teatrları sayılırdılar, dövlət tərəfindən təmin olunurdular. Əgər təminatı dövlət verirsə, təbii ki, teatrlar dövlətin siyasətinə, onun ideologiasına birmənalı şəkildə xidmət etməlidir. Həmin dövrdə teatrlar, yaradıcı insanlar bu asılılıqdan hər bir vəchlə azad olmağa çalışırdılar. Azərbaycan teatrlarını da bu siyahıdan çıxdaş eləmək düzgün olmazdı.

Odur ki, əvvəlcə yenidənqurma Azərbaycan teatrlarına nisbi sərbəstlik gətirdi. Sonradan isə müstəqillik illərində bu sərbəstliyin hüdudları daha da genişləndi. Düzdür, teatrların repertuarları və bütün tamaşaları Mədəniyyət Nazirliyi ilə razılaşdırılırdı, tamaşalar yalnız nazirlik tərəfindən qəbul edildikdən sonra repertuarda özünə yer ala bilirdi. Bu, o deməkdir ki, Azərbaycan teatrının tam sərbəstliyi müstəqillik dövründə belə nisbi idi. Bunun çox vacib bir şərti teatrların maddi bazasının yarıtmaz vəziyyətdə olması idi. Başqa bir yöndən yanaşanda isə biz görəcəyik ki, teatrların tam müstəqil şəkildə yaşaması Azərbaycanda mümkün deyildi. Çünki, müstəqillik dövründə kommersiya məqsədilə açılmış teatrlar çox tez bir zamanda özlərini dolandıra bilməyib bağlanırdılar.

Elə bu dövrdə teatr sənətçilərinin hamısı praktikada tam əmin oldular ki, teatrın təkbaşına, yalnız özünə güvənərək yaşaması mümkün deyil. Ona görə də, bütün teatrlar yenidən dövlətlə qırılmaz tandemdə işləmək arzusunu açıqcasına bildirdilər. «Teatr qanunu» haqqındakı söhbətlərin ilkin mərhələsi də məhz bu dövrə təsadüf edir. Deməli, teatr yenidənqurma mərhələsində sahibsiz qalıb çoxdan həsrətini çəkdiyi azadlığa, demokratiyaya, sərbəstliyə qovuşmuşdu. Lakin Azərbaycan teatrı yenidən, bu dəfə artıq sovet teatrının bir hissəsi kimi yox, məhz Azərbaycan teatrı kimi dövlətə müraciət etdi. Azərbaycan dövləti heç bir teatrı diqqətdən kənarda qoymadı. Hətta iş elə gətirdi ki, müstəqil Azərbaycan hökuməti «Yuğ» teatr studiyasına da, Gənclər Teatrına da, Pantomim teatrına da dövlət statusu verib dövlət teatrlarının sayını artırdı.

Beləliklə, faktiki olaraq 90-cı illərdə Azərbaycanda azad teatrın mövcudluğuna rəsmi şəkildə şans yaradıldı. Lakin məhz 90-cı illərdə tamaşaçını hər şeydən az teatr maraqlandırırdı. Çünki seyrçinin maraq dairəsinə bu zaman çoxlu yeni şeylər daxil olmuşdu. Bu, təkcə milli cəmiyyətin siyasiləşməsi, Qarabağ hadisələrilə əlaqədar deyildi. 90-cı illərdə Azərbaycana artıq XXI əsrin nəfəsi gəlmişdi. Kompüter azərbaycanlının məişətində özünə yer almışdı. Respublikanın kompüter bazarı uşaqlara və gənclərə yeni oyunlar və əyləncələr təklif edirdi və bu əyləncələrin hər biri yüksək texniki səviyyəni ortaya qoyurdu. Azərbaycan teleməkanında kanalların sayı durmadan çoxalırdı, dünya televiziyalarına baxmaq imkanı yaranırdı. Və bunların hamısı nəinki seyrçinin marağını özünə çəkmək, eyni zamanda, onlardan külli miqdarda pul qoparmaq iqtidarında idi. Artıq 90-cı illərin ikinci yarısından etibarən Azərbaycanın teleməkanında, radioməkanında, şou-biznes aləmində seyrçi uğrunda aşkar mübarizə qızışır. Təəssüflər olsun ki, bu mübarizəyə Azərbaycan teatrları qoşula bilmədilər. Başqa sözlə desək, onlar 90-cı illərdə özləri ətrafında seyrçi auditoriyası yaratmağı bacarmadılar, seyrçi marağına adekvat olmağı bacarmadılar. Bunun səbəblərini araşdırmağa başladıqda, biz yenə qapalı dairə içərisinə düşürük. Çünki səbəblərin bəziləri çoxdan açıqlanıb. Biz maddi-texniki bazanın zəifliyini, peşəkarlığın yetərincə olmamasını, yaradıcı ehtirasın, şövqün azlığını mümkün səbəblər içində göstərmişik. Lakin seyrçi uğrunda mübarizə olmadığından teatr heç də öz problemlərini həll edə bilməmişdir. Belə ki, bu dövrdə teatrı seyrçidən daha çox maddi məsələlər maraqlandırırdı. Odur ki, teatrın səyləri ancaq bu istiqamətə yönəlmişdi. Teatrı seyrçi mövcudluğundan daha çox öz varlığı narahat edir və düşündürürdü.

90-cı illərdə Azərbaycan teatrının imicinə xələl gətirən amillərdən biri də kimlərinsə nəyin bahasına olursa-olsun, öz pyesini hər hansı bir teatrda səhnələmək iddiası idi. Bu iddianın da kökü 60-cı illərdən gəlirdi. Bir sıra ədəbi təşkilatların rəhbərləri, vəzifəli şəxslər, partiya xadimləri 80-cı illərdə sanki öz adlarının teatr salnaməsinə düşməsindən ötrü hər cür vasitəyə əl atırdılar, yaradıcı insanları özlərindən asılı vəziyyətə salırdılar. Bu tendensiya 60-cı illərdə meydana gəlmişdi, 70-ci illərdə inkişaf eləmişdi, 80-ci illərdə daha da güclənmişdi, 90-cı illərdə isə həddini aşmışdı. Burada səbəb, ilk növbədə, teatrın maddi bazasının zəifliyilə izah olunurdu. Belə ki, hər hansı bir teatra pyes təqdim etmiş vəzifəli «dramaturq» həmin bu müddət ərzində teatra müəyyən pul kütləsinin axınını təmin edirdi. Onu da söyləyək ki, teatrlar bu «yaradıcı sövdələşməyə» böyük həvəslə gedirdilər. Belə ki, məhz 90-cı illərin qeyri-stabil sosial-iqtisadi durumunda dolanışıq problemləri hər şeyi üstələyirdi.

Biz bu məqalədə 90-cı illər cəmiyyətindəki şəraitin və bu şəraitdə teatr sənətinin varolma parametrlərinin fraqmentlərini açıqladıqdan sonra, 90-cı illərdə kifayət qədər aktual olan milli özünüdərk probleminə qayıtmaq istərdik. Zənnimizcə, bu məsələ bizim araşdırmalarımız üçün son dərəcə vacib məqamlardan biridir. Teatr sənəti, ümumilikdə, özünüdərk prosesilə qırılmaz əlaqədədir. Alman maarifçiləri əbəs deməyiblər ki, milləti yaratmaqdan ötrü öncə onun teatrını yaratmaq lazımdır. Əgər teatr milli özünüdərklə bağlı olmasaydı, XIX əsrin sonlarında heç Azərbaycan maarifçiləri də bu işə qol qoymazdılar, teatrın uğrunda min bir əziyyətə, cəfaya dözməzdilər. Həqiqətən, Azərbaycan maarifçiləri XIX əsrdə milli teatr ideyasına milli özünüdərkin ayrılmaz bir hissəsi kimi baxırdılar. Hərçənd ki, bu, milli özünüdərkin, hələlik ki, ilkin, primitiv mərhələsi idi. Bu mərhələdə xalqa əvvəlcə savad vermək, onu maarifləndirmək gərəkirdi. Çünki, maarifsiz özünüdərk nonsensdir. Təsadüfi deyil ki, Azərbaycan teatrı əsrin əvvəllərində ağır məşəqqətlərə məruz qalaraq məhz bu istiqamətdə irəliləyirdi və bu maarifçi teatr özünü daha çox tanıdıqca, dövlətə, çarın siyasətinə qarşı oppozisiyaya keçirdi. Lakin təəssüf ki, 20-ci il hadisələri milli özünüdərk prosesində bir əngələ çevrildi, prosesi tormozladı. Nəticədə, Azərbaycan teatrı milli özünüdərk prosesinin fəal iştirakçısı olmaq əvəzinə, biixtiyar sovet təbliğat maşınının ayrılmaz bir hissəsinə döndü. Beləliklə, teatrın milli özünüdərk prosesində iştirakı dayandırıldı, konservləşdirilib tarixə atıldı. M.F.Axundzadənin komediyaları, «Nadir şah», «Dağılan tifaq», «Müsibəti-Fəxrəddin», «Ölülər», «Trablis müharibələri», «Nəsrəddin şah», H.Cavidin dram və faciələri və bir sıra digər inqilabdan öncə yazılmış əsərlər məhz teatrın milli özünüdərk prosesində fəal iştirakını tənzimləyirdi. Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra bu pyeslərin bəzisi rəsmi şəkildə, bəzisi isə qeyri-rəsmi olaraq qadağan edildi. Məsələn, C.Məmmədquluzadənin «Ölülər» pyesi yasaq edilməsə də, bu əsərin Azərbaycan səhnəsində oynanılmasından ötrü onilliklər boyu gözləmək lazım gəldi. Qadağa qoyulmamış əsərlər isə sovet gerçəkliyinin və ideologiyasının tələblərinə müvafiq interpretasiya edildi.

Azərbaycan teatrı 60-cı illərdə yenidən milli özünüdərk prosesini fəallaşdırmaq əzmində oldu, özünə metaforik bədii bir dil axtarıb tapdı və milli fikrin oyanışına təsir göstərməyə çalışdı. Hətta buna müxtəlif tamaşalarında («Ölülər», «Unuda bilmirəm», «Mahnı dağlarda qaldı», «İnsan», «Dəli yığıncağı» və s.) nail də oldu. Ancaq bu məxfilik, dissidentlik uzun sürə bilməzdi və azərbaycanlı tamaşaçı da buna adekvat reaksiya verməyə, həm mənən, həm də intellekt baxımından, hazır deyildi. Odur ki, bu proses də Azərbaycan teatrında tezliklə öləzidi. Bunun səbəbini təkcə teatrda axtarmaq da düzgün olmazdı. Bunu Sovet dövlətinin siyasəti yönündən də izah etmək mümkündür. Məsələ ondan ibarətdir ki, artıq 60-cı illərin sonunda, 70-ci illərin əvvəllərində Azərbaycanda xüsusi bir sosial təbəqə əmələ gəlir: rus dilində düşünənlər, danışanlar və yazanlar. Hətta 70-ci illərin ortalarına yaxın Azərbaycanda milliyyətcə azərbaycanlı olub əsərlərini rusca yazan ədiblər ordusu meydana çıxır. Bu ədibləri də nədəsə suçlamaq heç düzgün deyil. Belə ki, dünya çapında tanınmaq üçün o vaxtlarda yalnız rus dili körpü rolunu oynayırdı. Ona görə də, əksər ziyalılar fikirlərini rus dilində ifadə etməyə üstünlük verirdilər. Getdikcə bu zümrə-

də və ya təbəqədə sürətli say artımı müşahidə olunmağa başladı. Hətta vəziyyət o yerə gəlib çatmışdı ki, azərbaycanlılar sırasında öz dilini başa düşməyənlər də peyda olmuşdu və bu tendensiya artan xətt üzrə davam edirdi. Əgər bu siyahıya biz 60-80-ci illərdə Azərbaycan ərazisində yaşamış rusları, erməniləri və yəhudiləri də əlavə etsək, onda görəcəyik ki, həmin dövr üçün bu tendensiya artıq azəri türkcəsindən ötrü əməlli-başlı təhlükə törədirdi. Əlbəttə ki, bu hal respublikadakı teatr işinə də öz mənfi təsirini göstərirdi. Öz ana dilindən uzaqlaşan insanlar teatrdan da getdikcə uzaqlaşırdılar. Çünki onlar dünyanı rus dilinin köməyilə qavrayırdılar və yalnız rusdilli ədəbiyyata, rusdilli kommunikasiya vasitələrinə köklənmişdilər. Hətta Azərbaycan klassiklərini belə onlar, əgər ümumiyyətlə, oxuyurdularsa, rusca oxuyurdular.

90-cı illərdəsə situasiya kəskin şəkildə dəyişməyə başlayır. Bakıya erməni təcavüzü və sosial-iqtisadi vəziyyət ucbatından rayon və kəndlərdən axışan əhalinin hesabına məsələ azəri türkcəsinin xeyrinə həll olunur. Lakin bu zaman Azərbaycan teatrı situasiyanı tam düzgün və çevik şəkildə qiymətləndirməyi bacarmadı. Çünki teatrın özü çaşqın və haradasa sarsılmış vəziyyətdə idi. Həqiqətən, 90-cı illərdə Azərbaycan teatrı yeni bir mərhələyə qədəm qoyurdu. Lakin Azərbaycan teatrı bunu hələ ki, fiziki şəkildə duymaq, dərk etmək iqtidarında deyildi. Əslində, 90-cı illərdə Azərbaycan teatrı XXI əsrin teatr salnaməsini yaşamağa başlayır. Çünki məhz 90-cı illər dünyada və Azərbaycanda koordinal dəyişikliklər dövrü kimi tarixdə əbədiləşib. Söylədiklərimizin elmiliyini daha da gücləndirmək naminə biz istərdik ki, yapon mənşəli Amerika tarixçisi Frensis Fukiyamanın fikirlərinə müraciət edək. O yazır ki, hər bir əsrin fiziki tarixi ömrü 100 ildir. Lakin əsrlərin bir-birini əvəzləməsi heç də zaman ardıcıllığı ilə, xronoloji ardıcıllıqla müəyyənləşmir. Belə ki, hər bir əsrin ömrü şüurda, düşüncədə baş verən dəyişikliklərlə ölçülür. F.Fukiyama düşünür ki, XIX əsrin ömrü yüzildən qat-qat artıq olub. Onun əqidəsinə görə, XIX əsr 1789-cu ildən, yəni Fransa inqilabından, XVIII əsrin içində start götürüb və 1914-cü ilə qədər davam edib. 1914-cü il bəşər tarixinin ən mühüm hadisələrindən birinin gerçəkliyini görükdürür. Bu məqamda Yer kürəsinin mövcudluq tarixində ilk dəfə olaraq Dünya müharibəsi başlayır. F.Fukiyamanın gümanı budur ki, I Dünya müharibəsi XIX əsri tamamladı və XX əsrin tarix salnaməsini açdı. Həqiqətən, bu, doğru mühakimədir. Çünki, məhz I Dünya müharibəsi XX əsrin yaşam ritmini, XX əsrin düşüncə parametrlərini proqramlaşdırdı. F. Fukiyama onu da deyir ki, XIX əsrin kifayət qədər sürəkli olmasına baxmayaraq, XX əsr son dərəcə gödək oldu. 1914-cü ildə özünü yeni dünya qavrayışı kimi mənimsəyən XX əsr, əslində, 2000-ci ilə qədər deyil, 1989-cu ilədək yaşadı. Deməli, əsr qısalıb 75 ilə də sığışa bilər. Niyə məhz 1989-cu il? F.Fukiyama burada əsas vurğunu Berlin səddinin uçurulması və Almaniyanın yenidən bütövləşməsi faktı üzərinə vurur və söyləyir ki, bu faktın gerçəkləşməsilə təfəkkür tamam yeni bir mərhələyə yüksəlir, yəni XX əsr qurtarır və yeni – XXI əsr başlayır.

Qəribədir, XXI əsrlə bağlı fikrini F.Fukiyama sanki Azərbaycanda yaşayaraq, Azərbaycan gerçəkliyini tanıyaraq, duyaraq dilə gətirmişdir. Sözün əsl mənasında XXI əsr Azərbaycanda məhz 1989-cu ildən başlayır. Bu il milli təfəkkürün oyanışının rəsmi qeydiyyat ilidir. Elə bu zamanlarda azərbaycanlılar bir ideya ətrafında birləşə bildilər, özlərini xalq kimi, vahid bir cəmiyyət kimi dərk edə bildilər və göstərdilər ki, düşmən qarşısında hamının mövqeyi eynidir.

Lakin bununla birgə çox mühüm məsələni də ortaya qoymaq mümkündür. Əgər tarixçi F.Fukiyama ikiyə bölünmüş alman xalqının 44 ildən sonra yenidən birləşməsini yeni təfəkkürün, XXI əsr təfəkküründün təzahür simvolu kimi yozursa, biz bunu qəbul eləyirik. Əgər bu, həqiqətən, baş verirsə, yeni təfəkkür öz mövqelərinə varırsa, onda görəsən niyə güney və quzey azərbaycanlıların birləşməsi problemə çevrilir? Yox, biz heç də bu sualla F.Fukiyamanın məntiqi və mükəmməl fikirlərinə kölgə salmaq istəmirik. Belə ki, onun fikirlərinin həqiqəti həddən ziyadə sirayətedicidir. Doğrudan da, 1989-cu ildən sonra bütün dünya hadisələri sanki tamam başqa sürətlə cərəyan etməyə başlayır. Bu, artıq XXI əsrin simptomudur.

Məhz bu məqam Azərbaycan teatrına kifayət qədər təsir göstərir. 90-cı illər Azərbaycanda milli oyanış və milli özünüdərkin onilliyidir. Odur ki, teatr da, qeyri-stabillik içində nə qədər çaşqın vəziyyətdə olsa da, özünü elə bu məcrada qavramağa istiqamətlənir.

Ədəbiyyat:

1.Əlizadə M.Ə. Teatr: seyr və sehr; milli teatr prosesi porblemləri. – B.: Elm, 1998. – s.192.

2.Rəhimli İ.Ə. Azərbayjan teatr tarixi. – Bakı: Çaşıoğlu, 2005. – s. 369.

3.Əlizadə M.Ə. Göstərilən əsəri, s. 197.

4.Talıbzadə A.A. XX əsrin teatr fəlsəfəsi: şüşə mozaika // Azadlıq. – 2000. – 29 dek. – 289. – s.12.

Xülasə

Bu yazı silsilə kimi düşünülmüş məqalələrdən üçüncüsüdür və bu üçüncü yazıda XX əsrin sonunda milli özünüdərk prosesi və Azərbaycan cəmiyyətində teatrın yeri probleminin aktuallaşmasının fəlsəfi-kulturoloji səbəbləri işıqlandırılır.

Резюме

Эта статья задумана третьей из цикла статей и в ней освещается процесс национального самопознания в конце XX века, а также философско-культурологические причины актуальности проблемы театра в азербайджанском обществе.

Summary

This article is one of the third ones to be thought as an succession and this тщирд article throws light on the process of national self-knowledge at the end of XX century and on philosophical-cultural reasons of actuality of the роле of theatre position in Azerbaijan society.

НЕСМОТРЯ НА РЕФОРМЫ, УРОВЕНЬ КОРРУПЦИИ В МИРЕ ОСТАЕТСЯ ВЫСОКИМ

С серьезными проблемами сталкиваются государства на постсоветском пространстве и Центральная Азия

Несмотря на усиливающийся государственный надзор, коррупция по-прежнему широко распространена во всей Юго-Восточной Европе и Центральной Азии, говорится в новом докладе, опубликованном неправительственной антикоррупционной группой "Транспаренси интернэшнл", представительства которой работают по всему миру.

В изданном 23 сентября докладе "Транспаренси интернэшнл" за 2008 год под названием "Индекс восприятия коррупции" измеряется воспринимаемый уровень коррупции среди государственных чиновников и политиков. Этот комплексный показатель опирается на различные экспертные и деловые опросы в каждой из стран. В докладе за 2008 год ранжируются 180 стран, которым выставлены оценки по шкале от нуля (высокий уровень коррупции) до 10 (высокая степень свободы от коррупции).

Рейтинги 19 стран, включая Албанию, Кипр, Турцию и Южную Корею, существенно улучшились по сравнению с уровнем 2007 года. Странами с наименьшей коррупцией в 2008 году считались Дания, Новая Зеландия и Швеция - по 9,3. Сомали с показателем 1,0 считается самой коррумпированной страной, далее следуют Ирак и Бирма, которую в докладе называют Мьянмой, с рейтингом 1,3.

"В самых бедных странах уровень коррупции может означать разницу между жизнью и смертью, когда на карту поставлены деньги, которые могут быть использованы для больниц или обеспечения чистой водой, - заявила, представляя доклад, председатель "Транспаренси интернэшнл" Югет Лабель. - Высокий уровень коррупции и бедность, получившая распространение во многих странах, равнозначны продолжающейся гуманитарной катастрофе и подлежат скорейшему искоренению".

Исследование показывает, что коррупция получила распространение не только в странах с низкими доходами. Богатые страны также испытывают трудности в сохранении высокого уровня прозрачности.

В 2008 году Великобритания и США получили более низкие баллы, чем в 2007 году. "Транспаренси интернэшнл" сообщила, что Соединенные Штаты, занявшие 18-е место, воспринимаются как страна, в которой лоббисты и группы с особыми интересами оказывают неправомерное воздействие на принятие политических решений. Рейтинг Великобритании, занявшей 17-е место, отразил недоверие общественности правительству после того, как было прекращено уголовной расследование одной сделки.

Все 20 стран, обследованных в Юго-Восточной Европе и постсоветских государствах, получили баллы ниже 5,0, что свидетельствует о том, что большинство из них сталкивается с ощутимым уровнем внутренней коррупции, отмечается в докладе. Эти страны мало продвинулись в борьбе с коррупцией, несмотря на обещания глав государств сделать кампании против коррупции главным элементом правительственных реформ.

Болгария, например, упомянута как страна, в которой отмечено наиболее резкое снижение указанного показателя ввиду роста влияния организованной преступности.

Однако Албания получила высокую оценку за свои усилия по борьбе с коррупцией, движущей силой которых стали правительственные реформы, вылившиеся в аресты и судебное преследование нескольких чиновников. Эти усилия укрепили уверенность общественности в том, что коррупция в Албании является серьезно наказуемым преступлением.

Показатели России и Украины продолжали ухудшаться, несмотря на единое мнение официальных лиц о том, что "после революций мелкая коррупция сократилась". Однако коррупция в крупных масштабах, связанная с высокопоставленным руководством, остается серьезной проблемой, поскольку, по мнению многих, слишком много внимания уделялось преследованию за коррупцию, а не согласованным усилиям по ее предотвращению.

В докладе предлагается усилить надзор по линии парламентов, правоохранительных органов, независимых СМИ и гражданского общества.

"Из-за слабости указанных институтов коррупция выходит из-под контроля с тяжелыми последствиями для рядовых граждан и, в целом, для справедливости и равенства в обществах", - говорится в докладе.

(Распространено Бюро международных информационных программ Государственного департамента США. Веб-сайт: http://www.america.gov/ru)

Hafiz Hacxalıl

RUH OTAĞI

(hekayə)



Təmirov Hafiz Ziyadxan oğlu 1981-ci ildə Ermənistan SSR Kalino rayonunun İlməzli kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rejissorluq fakültəsini kütləvi tədbirlər rejissorluğu ixtisası üzrə və Bakı Dövlət Universitetinin filologiya fakültəsini bitirmişdir. Bədii və publisistik yaradıcılıqla məşğul olur. Üç şeir kitabının müəllifidir. Publisistik yazıları mətbuatda dərc olunur. Dünya Gənc Türk Yazarlar Birliyi məclisinin üzvüdür. Birliyin Türkiyədə nəşr olunan almanaxında şeirləri dərc olunur.

Azərbaycan Respublikası DİN-in Polis Akademiyasının Redaksiya-nəşriyyat bölməsinin baş inspektor-korrektoru, polis leytenantıdır.

Onun heç kimə ziyanı dəyməmişdi. Təsadüfən ayağının altında bir qarışqa qalsa belə, ürəyinin giziltisindən gecələr yata bilməzdi. Baxışlarında gəzdirdiyi işıqdan bəlli olurdu ki, o, yer adamı deyil. Adətən, dünyanın ən ağ adamının belə sifətində olan qara cizgilər nə vaxtsa özünü təsdiqləyir. Bəlkə də o, yerə xoş məramçün gəlmiş naməlum uçan obyektlərin yer üzünə "xeyir nədir" sözünün böyüklüyünü insanlara çatdırmaq üçün buraxıb getdikləri vücudən yerli, ruhən göylü bir naməlum kimsə idi. Ancaq onu hamı tanıyırdı. Uşaqlar uşaq kimi, böyüklər böyük kimi. Yerişindən qarışqalar da tanıyırdı onu. İndiyə qədər əlindən və dilindən nə başına bəla gəlmişdi, nə də kiminsə başına bəla gətirmişdi. Dörd uşaq atası idi. Böyük qızını köçürtmüşdü. Üz-gözündən oxuyan olsa, baba olmasını necə səbirsizliklə gözlədiyinin sirrini aydınca bilmək olardı.

Hər axşam evindən saz səsi gələrdi. Özü üçün kiçik bir otaq düzəltmişdi və adını da qoymuşdu «Ruh otağı». Otağın pəncərəsindən süzülüb gələn işığa qucaq açan cücülər, böcəklər belə işıq yanmasa da, elə bil qara sazın sehirli səsinin işığına, nuruna və yanğısına gəlirdilər, bəlkə də vərdiş etmişdilər. Ən çox xoşladığı hava «Dilqəmi» idi. İlk dəfə atasından eşitmişdi bu havanı. Bu hava üstündə atasının necə yanıqlı-yanıqlı oxumağının, sonra da hönkür-hönkür ağlamağının şahidi olmuşdu. İndi dədə-baba ocağının yad nəfəsdən üşüyən ocaq yerinə, qara inəyin pəyədə qalan çatısına, səhər-səhər eydirmə içdiyi dolçanın göynərtisinə ağı deyə-deyə «Dilqəmi» üstündə hönkür-hönkür ağlayırdı və oxuyurdu.

Oxuduğu bayatının yanğısından göydə mələklərin qanadına od düşmüşdü.

Haray naşı əlindən,
Atmaz daşı əlindən.

Yastıq şikayət eylər,
Gözüm yaşı əlindən...

Özlərini pəncərəyə vuran cücülər, böcəklər də sanki dərdinə şərik çıxmaq istəyirdilər. Çəkdiyi dərdi hamı bilirdi, amma o heç kimə demək istəmirdi.

Amma bir gün onun dərdindən hamı danışırdı.

Kəndə hay düşmüşdü ki, Səməd müəllimin oğlunu ermənilər vurublar. Böyükdən-kiçiyə hamı kəndin girəcəyinə - «El yoluna» tərəf axışırdı. Bu xəbəri eşidəndə hiss etdi ki, içində gəzdirdiyi, zilini zil, bəmini bəm eylədiyi ömür adlı sazın simlərindən biri səssizcə qırıldı. Cınqırını belə çıxarmadı. Artıq yolu seçə bilmirdi, daha doğrusu, yolu görmürdü. Heç özünün də xəbəri olmadı «El yoluna» necə çatdı. Camaat meyiti gətirən hərbçilərin maşınını dövrəyə almışdı. Meyiti gətirən əsgərlər yazıq-yazıq və qorxa-qorxa camaatın üzünə baxır, sonra başlarını yerə dikirdilər. Əsgərlər yoldaşlarının ölümündə özlərini günahkar bilirdilər və bəlkə də içlərindən keçən «əşi nə vaxta qədər atəşkəs deyə-deyə hər gün bir əsgərimiz düşmən gülləsinə tuş gələcək» fikri artıq beyinlərini qanatmışdı. Hər gün üzünü gördüyün, deyib güldüyün, zarafat etdiyin bir insanı hərəkətsiz, rəngi ağappaq özü də tabutda görmək dərdlərin ən böyüyüdü dünyada bəlkə də. Əzizlərini itirənlər bu dərdi heç kimə arzulamaz, düşmənə belə.

Əvvəlcə uzaqdan tabutu başdan-ayağa süzdü, sonra tabutun ayaq ucuna gəlib yerə çöməldi, əlindəki çubuqla nəsə cızmağa başladı. Hamı ona baxırdı, o öz işində idi, torpağa cızıq çəkirdi. Çəkdikcə də "yenə də bu kəndə meyit gəldi" deyə pıçıldayırdı. Və birdən... və birdən heç kim bunu gözləmirdi. Var gücü ilə yenə sazda «Dilqəmi» üstə oxuyurmuş kimi çığırmağa başladı: «Camaat, nə vaxta qədər bu kəndə meyit gələcək, nə vaxta qədər kölgəmizdə qoruyub, kölgəsinə sığınmadığımız fidanların ömrü düşmən gülləsinə hədəf olacaq. Nə vaxta qədər bu torpağa su yox, şəhid qanı verəcəyik. Bax, bu qara torpağa qardaşımın iki oğul balasını öz əllərimlə qoydum. Ondan sonra əllərimi kəsmək istədim, fəqət bacarmadım, ona görə ki, tökülən göz yaşlarımı o əllərdən başqa heç kim silməyəcəkdi. Mən "Allah rəhmət eləsin", "axır qəminiz olsun" sözlərindən bezmişəm artıq. Gözün aydın, a qara torpaq, Səməd müəllim də sənə öz oğlunu pay verdi. Gözün üstündə olsun, nə qədər olmasa müəllim oğludu, tərbiyəli uşaqdı, muğayət ol.»

Artıq uçmurdu, havalanırdı. Yenə də heç kim görmürdü, amma gedirdi. Ayaqları onu toy xonçası kimi bəzənmiş Şəhidlər Xiyabanına sürüyürdü. Bir qəbirin yanında üzüqoylu necə düşdüsə, eləcə də qaldı.

Səhər açılanda özünü «Ruh otağı»nda gördü. Həmin "Ruh otağı" ki, içinin dərdi səpələnmişdi hər bucağına. Gündüz içində gəzdirdiyini gecələr qara baxtının qarasına batırıb qara sazın qara saçlarına sığal çəkəçəkə oxuyurdu. Özünü oxuyurdu və bir də hamının oxumaq istədiyini.

Onun heç kimə ziyanı dəyməmişdi. Təkcə özündən başqa. Artıq «Ruh otağı»nda cansız bədənindən başqa heş nə yox idi. Ruhu isə Allahın yanına hesab verməyə uçmuşdu...

YUMOR

Vasif SADIQLI

Dilim-dilim ol, dilim!



Məşhur bir sözdü, deyirlər, danış, səni görüm. İnsanın sirri dilinin altında gizlənib. Taleyran çox bic adam olub. Deyirdi, dil fikri izhar eləmək üçün yox, onu gizləmək üçündü. Bu yaxınlarda bir araşdırma aparmaq qərarına gəldik. İstədik mahnı mətnləri və mahnılarda oxunan şeir parçalarına görə müəyyən edək ki, Azərbaycan aşiqi kimdi, aktiv və passivində nəyi var? Nə tükdə canavardı? Bir düjin mətni analiz edəndən sonra bir daha əmin olduq: susmağın qızıla bərabər olması haqda deyilənlər böşuna deyil. Beləliklə, Azərbaycanın müstəqilliyə qədərki dövrünün aşiqi:

Səliqəsizdi:

Piyalələr irəfdədi,
Hərəsi bir tərəfdədi.

"Abjora"dı:

Mən gəlmişəm sizə qonaq, ay qız, mənə bax-bax,
Bişir mənə bir qayğanaq, ay qız, mənə bax-bax...

Bəhanə tapmaqda ustadı:

Əyil üzündən öpüm,
Əllərin xınalıdır.

Yaddaşın kəskin pozulmasından (skleroz) əziyyət çəkir:

Bu dağda bir maral var,
Başında tirmə şal var,
Adı çıxıb yadımdan,
Üzündə qoşa xal var.

Qarayaxadı:

Ay qız, ay qız, ay qız, gəlləm dalınca,
Səndən əl çəkmərəm mənim olunca.

Bədnəzərə inanır:

Sallana-sallana gələn Salatın,
Gəl elə sallanma, göz dəyər sənə.

Türklər demiş, klıbıkdı (arvaddan qorxan):

Özünə qurbanam yar, sözünə qurbanam, yar...
Qadanı mən alım, gəl-gəl, başına dolanım, gəl-gəl.

Dindən məhəbbət məqsədi ilə istifadə etmək istəyir:

Zairi-kuyinəm, ey şux, qoy öpüm xalindən
Həcəri öpməyənə xəlq deməzlər haci.

(Sənin başına dolanıram, qoy xalından da öpüm, çünki Kəbəyə gedib, Həcərül-Əsvədi (qara daşı) öpməyənə "hacı" deməzlər)

Fürsət düşkünüdü:

Mina qəddin zəbərcəddi,
Nə desən, cana minnətdi,
El köçüb, ara xəlvətdi,
Gəlsən alam busən, dilbər!

İctimai rəydən çox çəkinir:

Bulaq başı toz olar,
Üstü dolu qız olar,
Əyil dəsmalın götür,
Mən götürsəm, söz olar.

Qisasçıdır. Rəqiblərə qarşı bircə qırtım tolerantlığı yoxdu:

Sən ordan çıx, mən burdan,
Kor olsun düşmanımız.

Qarğışcıl və sadistdir:

Qurbani qaldı burada,
Çağır xudan gəlsin dada,
Meyidin qalsin arada,
El yığılıb götürməsin!

Regional mənsubiyyətə fərq qoyur:

Ay gözəl haralısan,
Qaşları qaralısan,
Baxışından bilirəm,
Bakının maralısan.

...Mahnı mətnləri ümumiləşdirilmiş aşiqin narı yaman sevdiyini göstərir.

Bu gələn yar olaydı,
Əlində nar olaydı,
İkimiz bir köynəkdə,
Yaxası dar olaydı...

Sonrasını başa düşdük: yaxanın darlığı parçaya qənaət üçün deyil. Amma aşiq niyə nar üçün ölür? Niyə gilas, ərik, başqa meyvə istəmir? İndiyəcən elə bilirdim ki, bu meyvəni qadın siluetinin bir ünsürü kimi sevirlər. Cəmi cümlətanı. Amma belə deyilmiş. Başqa bir mətn köməyə çatır:

Meyvələrdən üç meyvə var, üçü də,
balam, yeməli,
Biri alma, biri heyva, birisi nar.
Alma sənin, heyva da sənin, nar
mənim, balam nar mənim...

Demə, xarakter tələb edirmiş. Amerikalı alimlər müəyyən edib ki, hər hansı bir meyvəyə olan sevgi ilə insanın kimliyini bilmək olar. Məsələn, portağalsevərlər hərdəmxəyal və etibarsız, gilassevərlər uşaq kimi saf qəlbli, çiyələksevərlər qısqanc ... olur. Narsevərlər haqda Amerika alimləri belə deyir: "ONLARLA NƏ ZARAFAT ELƏ, NƏ DƏ ONLARA BÖYÜK MIQDARDA BORC PUL VER". Bir sözlə, əmanətə xəyanət edən. Bu yerdə deyirlər: "Dilim-dilim ol, dilim!"

LENT.AZ

SON SƏHİFƏ

NOBEL MÜKAFATI LAUREATLARI – 2008

İsveç Kral Akademiyası üç nominasiya üzrə Nobel mükafatı laureatlarını elan edib

"Fizika" nominasiyası üzrə Nobel mükafatı yapon əsilli amerikalı Yoitiru Nambu və iki yaponiyalı alim – Makoto Kobayaşi ilə Tosixide Maskavaya verilib. Mükafatın yarısını (500 min avroya yaxın) 1921-ci il təvəllüdlü Y. Nambu alacaq. M. Kobayaşi və T. Maskava isə hərəyə 250 min avroya yaxın pul alacaqlar.



Ədəbiyyat üzrə Nobel mükafatını fransız yazıçısı Jan-Mari Qüstav lə Kleziö alıb.

İsveç Kral Akademiyasının qərarında deyilir ki, 68 yaşlı lə Kleziönün əsərlərinə «dərin poetik hissiyyat» məxsusdur.

Lə Kleziö 80-ci illərin sonunda «Səhra» romanının nəşrindən sonra məşhurluq qazanmışdır. O, ədəbiyyat üzrə bir çox mükafatlara, o cümlədən Fransa Akademiyasının mükafatına layiq görülüb.

Lə Kleziö 10 milyon İsveç kronundan (1,42 milyon dollar) ibarət pul mükafatı alacaq.



Tibb sahəsində mükafata Almaniya və Fransa alimləri layiq görülüblər. Almaniyalı alim Harald Turhauzen bu yüksək mükafata uşaqlığın xərçənginin virusunu aşkarladığına, fransalı Fransua Barre-Sinusi və Lyuk Montenye isə QİÇS xəstəliyini yaradan immun çatışmazlığı virusunu aşkarladıqlarına görə layiq görülüblər.

1 milyon 399 min dollar məbləğində mükafatın yarısı almaniyalı alimə çatacaq, digər yarısı isə fransalı alimlər arasında bölünəcək.

ƏN ÇƏTIN OXUNAN 20 SÖZ

Tədqiqatçılar ingilis dilində ən çətin oxunan sözləri müəyyənləşdirib

Böyük Britaniyada bir qrup tədqiqatçı ingilis dilində ən çətin oxunan sözləri aşkar etmək üçün sorğu keçirib.

20 çətin oxunan sözlərdən ibarət olan siyahıya «phenomenon» (fenomen) sözü başçılıq edir. Sorğuda 3 min britaniyalı iştirak edib və məlum olub ki, britaniyalılar üçün «m» və «n», «t» və «s» hərflərinin yaxın olduğu sözlər, həmçinin «th» hərf birləşməsi olan sözlər çətin oxunur:

1. Phenomenon – fenomen;
2. Anaesthetist – anesteziolog;
3. Remuneration – mükafat;
4. Statistics – statistika;
5. Ethnicity – etnik mənsubiyyət;
6. Philosophical – fəlsəfi;
7. Provocatively – təxribat xarakterli;
8. Anonymous – anonim;
9. Thesaurus – xəzinə;
10. Aluminium – alüminium;
11. Regularly – mütəmadi;
12. February – fevral;
13. Particularly – xüsusilə;
14. Hereditary – irsi;
15. Prioritising – prioritetin müəyyənləşdirilməsi;
16. Pronunciation – tələffüz;
17. Prejudice – yanlış fikir;
18. Facilitate – asanlaşdırmaq;
19. Hospitable – qonaqpərvər;
20. Onomatopoeia – səsin bənzədilməsi.

"MİLAN" 9 YAŞLI FUTBOLÇU ALDI

İtaliyanın "Milan" klubu 9 yaşlı futbolçunu transfer edib. "Qara-qırmızı"lar Meksika futbolunun yeniyetmə ulduzu Eduardo Obreqonu heyətinə qatıb. İndidən Dieqo Maradona, Lionel Messi və Serxio Aquero kimi oyunçularla müqayisə olunan "Pişik" ləqəbli Eduardo vətənində "Çivas" klubunda oynayıb. Uşaqların turnirində vunderkindi görən "Milan" seleksiyaçıları "Barselona"nın da göz dikdiyi Obreqonu almağa tələsib.

DÜNYANIN ƏN VARLI ADAMI

Dünyanın ən varlı şəxsləri siyahısında lider dəyişib. Sərmayəçi Uorren Baffet son bir ay ərzində varidatını 8 milyard dollar artıraraq dünyanın ən varlı şəxsi olub. Baffetin "Berkshire Hathaway" investisiya fondunun səhmlərinin dəyəri bir ayda 16 faiz artıb, bununla da onun varidatı 58 milyard dollara çatıb. Microsoft şirkətinin sahibi Bill Qeyts isə bir ay ərzində 1.5 milyard dollar ziyan edib və hazırda 55,5 milyard dollarlıq varidatla varlı şəxslər siyahısında ikinci yerdədir.


UŞAQ DÜNYASI

"Xəzər Xəbər" toplusunun məktəblilər üçün əlavəsi

AMERİKA "DÜNYA" MƏKTƏBLİLƏRİNİN GÖZÜ ILƏ...



"Dünya" məktəbi artıq bir neçə ildir ki, öz şagirdlərini dünyanın müxtəlif olkələrinə səyahətə göndərir. 2007- ci ildə İngiltərə, 2008 - ci ildə isə Amerika Birləşmiş Ştatları və yenidən İngiltərə kimi böyük ölkələrə iki və üç həftəlik səyahət! Görüşlər, həyəcanlar....Bu dəfə də uşaqların səfər təəssüratlarını sizinlə bölüşmək qərarına gəldik. Beləliklə, ilk yazını təqdim edirik.





VƏTƏNƏ QAYITMAQ HİSSİ HƏR ŞEYDƏN GÖZƏLDİ...

Həyatımda ilk dəfə idi ki, ailəmdən ayrı uzaq bir yerə gedirdim. Özü də mənim üçün əlçatmaz olan bir ölkəyə...Heç birimiz bilmirdik ki, Bizi orada nələr gözləyir. Amerikaya çatanda hamımız çox həyəcanlı idik. Ona görə ki, artıq xəyallarımızın ölkəsinə çatmışdıq.

Amerikada biz Four Points by Sheraton otelində qaldıq. Ilk səyahətimizə isə Vaşinqton şəhərindən başladıq. Vaşinqton həqiqətən də çox gözəl şəhərdir. Biz orada Ag evi və Goverment-in binasını və başqa məşhur binaları gördük, Vaşinqtonun ən məşhur muzeylərində olduq. Biz həmçinin orada kurslara getdik. Mənim olduğum qrupda azərbaycanlı yox idi. Müəllimim çox mehriban idi. O, Azərbaycan haqqında çox məlumat bilirdi və hətta bəzi sözləri bizə azərbaycanca deyirdi.

Biz Vaşinqtonun ən böyük universitetlərindən biri olan Georgetown universitetində olduq. Orada təhsil almaq üçün çox gözəl şərait yaradılıb. Və nəhayət biz Niaqara şəlaləsinə yola düşdük. Şəlalə çox böyük idi. Bunu sözlə təsəvvür etmək mümkün deyil. Niaqaranı gəmi ilə gəzdik.

Mənim ən çox görmək istədiyim şəhərlərdən biri də Nyu-York idi. Orada çox qalmasaq da, şəhərin əsas yerlərini gəzdik, Azad Qadın heykəlini gördük. Biz orada həmçinin "Empire State Building"də olduq. Bu bina inanılmaz dərəcədə hündürdür. O qədər hündürdür ki, oradan bütün Nyu-Yorku görmək mümkündür!

Və nəhayət, məşhur Six Flags! Ora çox maraqlı parkdır. O qədər maraqlidir ki, oranı sizin hər biriniz görmək istərdiniz. Bilirəm ki, bu yay Amerikada keçirdiyim günləri heç vaxt unutmayacağam.

...Və biz Vətənə döndük! Hər şey gözəl oldu, amma Vətənə qayıtmaq hissi hər şeydən gözəldi...







Məmmədova Şənay,
X sinif şagirdi

ƏDƏBİYYAT LÜĞƏTİ

Gəlin, öyrənək!

GƏRAYLI - əsasən aşıq şeirinin çox yayılmış formalarından biri. Heca vəznindədir. Bəndlərin sayı, bir qayda olaraq, 3,5,7 olur. Hər bəndi dörd misradan ibarətdir. Misralardakı hecaların sayı 8-dir. Qafiyə quruluşu belədir: abab, ccca, çççа. Aşıqlar bu qism şeir örnəklərini "gəraylı" saz havası üstə oxuyurlar. Şairlərimiz də yaradıcılıqlarında gəraylı formasına sıx-sıx müraciət edirlər.

GÖZƏLLƏMƏ - əsasən gəraylı, qoşma, müxəmməs formalı şeirlərdə şairlər, aşıqlar gözəlin boy-buxununu, camalını, ağıl və mərifətini məhəbbət duyğuları ilə təsvir edirlər. Bu qism şeirlər gözəlləmə adlanır. Gözəlləmənin məxsusi forması olmur.

GÜLÇİN - Yaxın şərq, o sıradan Azərbaycan ədəbiyyatında "Şeir məcmuəsi" mənasında işlənib. Gülçində bir və ya bir neçə şairin əsərlərindən seçmə nümunələr, şah beytlər sistemlə sıralanır.

GÜNDƏLİK - bir şəxsin həyatında baş verən hadisələri, görüb eşitdiklərini günbəgün yazıya alması. Bəzi hallarda bədii əsər də gündəlik formasında yazılır. Gündəlik digər yazı növlərindən dəqiq tarixin göstərilməsi ilə seçilir.

HAFİZ - bədii əsərləri əzbərdən söyləyən şəxs. Tacik və əfqanlarda xalq nəğməkarları da hafiz adlanir. Hafizlər özləri də, çox vaxt,şeir yazan olurlar.

HAXIŞTA - xalq şeiri formalarından biri. Daha çox toy və nişan mərasimlərində oxunur. Haxıştalarda, əsasən, bayatılardan istifadə edilir. Bir bənddən, dörd misradan ibarət olan bu şeirdə misraların hər birinə "haxışta"deyimi əlavə olunur. Haxıştalar məmləkətimizin Naxçıvan bölgəsində geniş yayılıb.

HALAY - bayatı və qoşma bənzərli şeir. Daha çox rəqs zamanı ifa olunur.

HAYLA - bayatı məzmunlu, bayatı formalı şeir. Yurdumuzun Balakən-Zaqatala bölgəsində yayğın olan haylalar tənbur çalğı alətinin müşayiəti ilə oxunur.

HEKAYƏ -bədii ədəbiyyatın epik növünə daxil olan həcmcə kiçik əsər. Hekayə yazıçıların ən çox müraciət etdiyi janrlardandır. Hekayədə iştirak edən obrazların sayı çox olmur. Hekayənin, əsasən, üç növü var: əhvalat hekayə, portret hekayə, sənədli hekayə.

HƏBSİYYƏ -orta yüzillikdə Şərq poeziyasında qəsidə, məsnəvi formasında yazılmış şeir. Bir müddət saray şairi olub hökmdar və onun çevrəsində olanlara tərif-mədh yazan sənətkarların bəzisi sonralar müəyyən səbəbdən həbs olunurlar. Onların bu münasibətlə yazdıqları şeirlər "həbsiyyə", bəzən də "zindaniyyə" adlanır.

HƏDİS - peyğəmbərimiz Məhəmməd (s.ə.v.) və onun yaxınları, məsləkdaşları barədə söylənilən rəvayət.

HƏRBƏ-ZORBA - Azərbaycan aşıqlarının deyişmə zamanı bir-birinə müraciətlə özlərini öyməsi, rəqibinə, bir növ, meydan oxuması. Hərbə-zorbalar, əsasən, qoşma formasında olur.

HƏSRƏTNAMƏ - müəllifin cavanlığını, xoş və qayğısız günlərini, dünyasını dəyişmiş dostlarını həsrətlə xatırladığı əsər. Həsrətnamə daha şox qəzəl, qəsidə, müxəmməs formasında olur.

HƏCV -müəllifin hər hansı bir kimsəyə kin və nifrətini kəskin şəkildə ifadə edən şeir. Həcv formasında yazılmış şeirlər, adətən, subyektiv, fərdi səciyyə daşıyır.

HİMN - təntənəli ruhda yazılmış, tərənnüm səciyyəli mahnı mətni. Himn mətnində qüvvətli emosiya olur.

HOLAVAR - əkinçilik və cütçülüklə bağlı əmək nəğməsi. İş prosesində əməyi yüngülləşdirmək istəyi ilə oxunub.

Hazırlayanı:
Bəhlul ABDULLA

KİTABXANAMIZIN YENİ KİTABLARI



Azərbaycan xalq cümhuriyyəti və Qafqaz islam ordusu. – Bakı: Nurlar, 2008. – 696 s. – ISBN 9952-426-23-2




Azərbaycanın neft və qaz kəmərləri sistemi / red. İlham Məmmədli. – Bakı: CBS, 2006. – 118 s.



Bastiat F. Hüquq. – Bakı: Çinar-Çap, 2007. – 137 s.



Baybəyim A. Babəknamə. – Bakı, 2007. – 118 s. – ISBN 978-9952-438-06-2



– Koch T. Bank Management. – 6th ed. – Boston: South-Western College, 2005. – 762 p. – ISBN 0-324289278




Tatsachen über Deutschland = Facts about Germany. – Frankfurt/Main: Societätsverlag, 2008. – 192 p.

История Азербайджана: с древнейших времен до 70-х гг. XIX в. / ред. Сулейман Алиярлы. – Баку: Чыраг, 2008. – 768 с.





Расулова М. Торгово-экономические и культурные связи Кавказской Албании с античным и эллинистическим миром: IV век до н.э. – III век н.э. – Баку: Мутарджим, 2008. – 228 с.



Doing business 2009: comparing regulations in 178 economies. – Washington, DC: International Bank for Reconstruction and Development/World Bank, c2008. – 158 p.

Hazırlayan: Lyudmila SOTOVA

KHAZAR VIEW

XƏZƏR XƏBƏR

Öz ciddi məzmunu və rəngarəngliyi ilə seçilən
"Xəzər Xəbər" toplusu yenə sizin görüşünüzə gəlib.
"Xəzər Xəbər"də Azərbaycan, rus, ingilis,
türk və başqa dillərdə dərc olunan maraqlı xəbərlər,
ali və orta təhsil haqqında yeniliklər,
poeziya və ədəbiyyat səhifələri, məzəli əhvalatlar,
elmi əsərlər, siyasətə, mədəniyyətə, idmana aid yazılar, qəribə
sevgi macəraları, uşaq yaradıcılığı, maraqlı yarışlar -
müsabiqələr və s. könlünüzcə olacaq.
"Xəzər Xəbər" gənclərin və oxuyan,
düşünən hər kəsin dərgisidir.
"Xəzər Xəbər"i İNTERNET vasitəsilə dünyanın
hər yerində oxuyurlar.
"Xəzər Xəbər"i siz də oxuyun!
"Xəzər Xəbər"ə siz də yazın!
"Xəzər Xəbər"i şəhərimizdəki qəzet-jurnal
köşklərindən ala bilərsiniz.
"Xəzər Xəbər" ayda iki dəfə çıxır.

Ünvan: Bakı şəhəri,
Məhsəti küçəsi, 11.
Əlaqə telefonları: 421-79-16
421-10-93.
E-mail: xazarxabar@khazar.org